*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının
Elm və Təhsil Nazirliyinin orqanı

4 noyabr 2022-ci il
№43 (9001)

www.muallim.edu.az
muallim@edu.gov.az

**BU SAYIMIZDA**

**Təhsilin İnkişafı Fondundan DƏSTƏK**

Təhsilin İnkişafı Fondu, Təhsildə Keyfiyyət Təminatı Agentliyi və 6 ali təhsil müəssisəsi arasında “Universitetlərin elmi-pedaqoji heyət üzvləri və təhsilalanların IELTS imtahanına təşviq edilməsi haqqında” əməkdaşlıq müqaviləsi imzalandı. Müqaviləyə əsasən layihə çərçivəsində IELTS imtahanında iştirak edən və yüksək bal toplayan 300-dək akademik heyət üzvü və tələbənin bu imtahan üzrə ödənişlərinin Təhsilin İnkişafı Fondu tərəfindən qarşılanması planlaşdırılır.

səh.5

**“Biliklərin dövlətə, regiona faydalı ola bilməsini hədəfləyirik”**



Universitetlərin keyfiyyəti onların cəmiyyətə, dövlətə, ölkəyə verdiyi əlavə dəyər və elmə verdiyi töhfələrlə ölçülür. Əgər o, əlavə dəyər yaradırsa, mənim fikrimcə, o universitet ixtisaslı universitetdir. Əlavə dəyər yaratmırsa, o universitet israfdır, ixtisaslı universitet deyil. Bu mənada, biz bir universitet olaraq təkcə akademik biliklər deyil, həm də istehsal etdiyimiz biliklərin cəmiyyətə, dövlətə, ölkəyə və regiona faydalı ola bilməsini hədəfləyirik. Mənim nəzərimdə keyfiyyətli universitet budur.

səh.7

**“KAIST-də rəqabət çox güclüdür”**



Ölkəmizdə şagirdlərin istedad və bacarıqlarının erkən yaşlardan aşkar olunması, bu sahədə aparılan məqsədyönlü islahatlar və onların keyfiyyət göstəriciləri özünün bariz nümunəsini yüksəkixtisaslı, müasir bilik və səriştələrə sahib insan kapitalının formalaşmasında tapır. Şagirdlərdə elmi təfəkkürün, tədqiqatçılıq bacarıqlarının stimullaşdırılması istiqamətində atılan addımlar nəticəsində ölkəmizin gələcək elmi potensialının əsasını təşkil edən gənclərimizin sorağı artıq dünyanın nüfuzlu universitetlərindən gəlir. Onlardan biri də Kamran Mehdiyevdir.

səh.8

# QARABAĞ AZƏRBAYCANDIR!



# ZƏFƏR GÜNÜN MÜBARƏK, AZƏRBAYCAN!

**İlham ƏLİYEV, Müzəffər Ali Baş Komandan**

**Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!**

**Əziz Şuşa, sən azadsan!**
**Əziz Şuşa, biz qayıtmışıq!**
**Əziz Şuşa, biz səni dirçəldəcəyik!**
**Şuşa bizimdir!**
**Qarabağ bizimdir!**
**Qarabağ Azərbaycandır!**

**Bu müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi - yenilməz xalq, dəmir iradəli xalq, müzəffər xalq, müzəffər ordumuz!... Mən də xoşbəxtəm ki, bu xoş xəbərləri, bu müjdəni Azərbaycan xalqına verirəm... Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq!**

# Akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2023-cü ilin aprel ayında Azərbaycanın görkəmli alimi, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əziz qızı Əliyevanın anadan olmasının 100 ili tamam olur.

Akademik Zərifə Əliyeva zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçmiş, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Alimin oftalmologiyanın aktual məsələlərinə dair uzunmüddətli araşdırmalarının uğurlu nəticəsi olan sanballı əsərləri həmişə təqdirlə qarşılanmış və yüksək qiymətə layiq görülmüşdür. Bu tədqiqatlarda irəli sürülən yeni və effektli müalicə metodları, kompleks profilaktik tədbirlər qısa müddətdə müvəffəqiyyətlə geniş tətbiqini tapmışdır. Azərbaycanda oftalmologiya məktəbinin ilk tədqiqat mərkəzi olaraq ixtisaslaşdırılmış elmi tədqiqat laboratoriyası məhz akademik Zərifə Əliyevanın təşəbbüsü ilə yaradılmışdır. Həkimlik etikasını bütün elmi və pedaqoji fəaliyyəti boyu daim diqqət mərkəzində saxlayan Zərifə Əliyeva respublikada yüksəkixtisaslı kadrların hazırlanması işinə gərgin əmək sərf etmiş, gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəslini formalaşdırmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkəmizdə tibb elminin inkişafında xüsusi xidmətlər göstərmiş görkəmli oftalmoloq alim Zərifə Əliyevanın anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə akademik Zərifə Əliyevanın 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 3 noyabr 2022-ci il*

# “Beynəlxalq kosmik hava təşəbbüsü: Günəş, kosmik hava və geosfer”

## Konfrans gələcəkdə ölkələrarası elmi əlaqələrin genişlənməsinə xidmət edəcək






Oktyabrın 31-də “Beynəlxalq kosmik hava təşəbbüsü: Günəş, kosmik hava və geosfer” mövzusunda beynəlxalq tədbirin açılış mərasimi keçirilib.

Tədbir Birləşmiş Millətlər Təşkilatının Xarici Kosmos Məsələləri üzrə Ofisi (UNOOSA) və Bakı Dövlət Universitetinin (BDU) təşkilatçılığı, Qlobal Naviqasiya Peyk Sistemləri (GNSS) üzrə Beynəlxalq Komitə (ICG) və Amerika Birləşmiş Ştatları Milli Aeronavtika və Kosmos İdarəsinin (NASA) tərəfdaşlığı və dəstəyi ilə təşkil olunub.

Konfransın açılış mərasimində çıxış edən BDU-nun rektoru Elçin Babayev qeyd edib ki, son illər Azərbaycanda kosmik tədqiqatlar və kosmik sənayenin, informasiya-kommunikasiya texnologiyalarının inkişafına xüsusi diqqət yetirilir. Bu sahə ölkə iqtisadiyyatının aparıcı istiqamətlərindən birinə çevrilib. 2018-ci ildə ölkə Prezidenti cənab İlham Əliyev “Peyk vasitəsilə Yerin məsafədən müşahidəsi xidmətlərinin inkişafına dair 2019-2022-ci illər üçün Dövlət Proqramı”nı təsdiq edib. Hazırda “Azərkosmos”un idarə etdiyi “Azerspace-1”, “Azerspace-2” və “Azersky” peykləri yüksək keyfiyyətli və etibarlı telekommunikasiya, eləcə də Yerin müşahidəsi üzrə xidmət və həllər təqdim edir. Bu gün Qafqazda ilk və yeganə peyk operatoru olan “Azərkosmos” telekommunikasiya və geoloji kəşfiyyat peyk xidmətlərini göstərir.

Rektor bildirib ki, hazırda BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin nəzdində fəaliyyət göstərən Aerokosmik və Atmosfer Tədqiqatları elmi-tədqiqat laboratoriyasında, həmçinin Fizika fakültəsinin Astrofizika kafedrasında müvafiq tədqiqat və tədris layihələri yerinə yetirilir.

Tədbirdə iştirak edən elm və təhsil naziri Emin Əmrullayev konfransın əhəmiyyətini və gələcəkdə ölkələrarası elmi əlaqələrin genişlənməsinə xidmət edəcəyini bildirib. Nazir qeyd edib ki, son illər Azərbaycan yüksək sürətlə inkişaf edir, ənənəvi tədqiqat institutları, milli akademiya formatında fəaliyyət göstərən təsisatların gənc universitetlərlə əlaqələrinin qurulması istiqamətində işlər görülür.

“Qara qızılın insan kapitalına çevrilməsi” devizinin gənclər üçün böyük fürsətlər yaratdığını deyən nazir vurğulayıb ki, xaricdə təhsil proqramı ilə artıq 3 mindən çox azərbaycanlı dünyanın aparıcı universitetlərində təhsil alıb. Hazırda onlar ölkəmizə töhfə verməkdədirlər.

ABŞ-ın Merilend Universitetinin professoru, kosmik tədqiqatlar sahəsində görkəmli alim, akademik Roald Saqdeyev, gənclər və idman nazirinin müavini İndira Hacıyeva, Azərbaycan Respublikasının Kosmik Agentliyinin (Azərkosmos) İdarə Heyətinin sədri Saməddin Əsədov, BMT-nin Xarici Kosmos Məsələləri üzrə Ofisinin nümayəndəsi Luc St-Pierre, Qlobal Naviqasiya Peyk Sistemləri üzrə Beynəlxalq Komitənin nümayəndəsi Şərafət Qədimova, NASA-nın nümayəndəsi Nat Gopalsvami, Şamaxı Astrofizika Rəsədxanasının baş direktoru Namiq Cəlilov çıxışlarında qeyd ediblər ki, beynəlxalq tədbir kosmosun fəthi ilə bağlı tədqiqatlara öz töhfəsini verəcək, ölkələr arasında elmi əlaqələri daha da genişləndirəcək.

Çıxışlarda həmçinin diqqətə çatdırılıb ki, Azərbaycanın 2030-cu ilə qədər kosmik sahədəki fəaliyyətləri ilə bağlı geniş sənədlər hazırlanır. Hazırda Azərbaycan kosmik sənayedə etibarlı tərəfdaş olaraq qəbul olunur. Gələn il isə Bakıda Beynəlxalq Astronavtika Konqresi keçiriləcək.

Seminarın gözlənilən nəticələrinə kosmik hava məlumatlarının yüksək dəqiqliklə toplanması, mübadiləsi və çatdırılması, həmçinin qabaqcıl təcrübələrin təşviqi yolu ilə modelləşdirmə, proqnozlaşdırma metodlarının dəqiqliyinin və etibarlılığının artırılması üçün tövsiyələrin hazırlanması daxildir.

Beynəlxalq tədbirdə dünyanın 36 ölkəsindən və 4 qitəsindən tədqiqatçılar iştirak edir, xeyli sayda alim isə onlayn olaraq qoşulub.

Tədbir noyabrın 5-dək davam edəcək.

# Elm və təhsil naziri Şəkidə vətəndaşları qəbul edəcək

Elm və təhsil naziri Emin Əmrullayev 25 noyabr 2022-ci il tarixində Şəki şəhərində Şəki, Oğuz, Qəbələ, Qax, Zaqatala və Balakən rayonlarında qeydiyyatda olan vətəndaşlarla görüş keçirəcək. Qəbulda həmçinin qeyd olunan ərazilərdə müvəqqəti məskunlaşmış və məcburi köçkünlər də iştirak edə bilərlər.

Adları çəkilən şəhər və rayonların sakinləri 17 noyabr 2022-ci il (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146-6 nömrəli telefonuna (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Eləcə də nazirliyin rəsmi saytının *https://edu.gov.az/az/contact_us* bölməsinə elektron formada və ya +994 51 206 78 48 nömrəsinə “Whatsapp” vasitəsilə müraciət göndərmək mümkündür.

Qəbulda yalnız yuxarıda göstərilən tarixlərdə müraciət etmiş şəxslər iştirak edə biləcəklər. Müvafiq qaydada müraciət etmiş və adları qəbula yazılanlar siyahısında olan vətəndaşlar qəbulun keçirildiyi otağa şəxsiyyət vəsiqəsi əsasında buraxılacaqlar.

# “Təhsildə yeni çağırışlar” forumu dünyanın diqqətində

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) rəsmi “Twitter” hesabında Bakıda keçiriləcək “Təhsildə yeni çağırışlar” III Beynəlxalq forumu barədə məlumat paylaşılıb.

“Daha təhsilli gələcək” şüarı ilə keçiriləcək beynəlxalq forum rəqəmsal dünyada öyrənmək və qlobal səriştələr mövzularını əhatə edəcək.

Forumda UNESCO-nun Baş direktorunun təhsil üzrə müavini Stefania Giannini, İƏİT-in Baş katibinin təhsil siyasəti üzrə xüsusi müşaviri, Təhsil və bacarıqlar üzrə direktoru Andreas Şleyxer, Portuqaliya Təhsilin Qiymətləndirilməsi İnstitutunun İdarə Heyətinin sədri, PISA İdarə Heyətinin Portuqaliyadakı təmsilçisi Luiz Pereira dos Santos, Estoniya Təhsil və Tədqiqat Nazirliyinin Ümumtəhsil şöbəsinin məsləhətçisi, ölkənin PISA üzrə koordinatoru Maye Kitsinq, PISA-nın baş analitiki Maryo Piaceçentini, ABŞ Milli Təhsil və İqtisadiyyat Mərkəzinin Baş Tədqiqat üzrə direktoru Tresi Börns, İƏİT-in baş analitiki, Təhsil Tədqiqatları və İnnovasiyalar Mərkəzinin direktor müavini Stefan Vinsen Lankren, İƏİT-in Təhsil və bacarıqlar şöbəsinin Təhsil Tədqiqatları və İnnovasiyalar Mərkəzinin analitiki Mark Fuster təqdimatlar edəcəklər.

Beynəlxalq spikerlərin “Öyrənənləri gələcəyə necə hazırlayaq?”, “Gələcəyin məktəbi necə olmalıdır?”, “Təhsili formalaşdıran qlobal trendlər”, “Təhsildə rəqəmsallaşma yekun həlldirmi?” və digər mövzularda çıxışları nəzərdə tutulub.

# Gənclərin informasiya müharibəsində aktiv iştirakçılığı ilə bağlı panel görüş

Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Tədbirlərin təşkili və tələbələrlə iş şöbəsinin və Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının (NAYORA) təşkilatçılığı ilə gənclər təşkilatlarının rəhbərlərinin “Post-müharibə dövründə gənclərdən olan gözləntilər və informasiya müharibəsində aktiv iştirakçılıq” mövzusunda tələbələrlə panel görüşü keçirilib.

Görüşdə çıxış edən ADPU-nun Tədbirlərin təşkili və tələbələrlə iş şöbəsinin müdiri Turan Kərimli Pedaqoji Universitetdə gənclərin sosial şəbəkələrdə səmərəli fəaliyyətinə dəstək vermək məqsədi ilə görülən işlərdən, bu sahədə şöbənin və universitetin gənclər təşkilatlarının fəaliyyətindən danışıb.

NAYORA-nın sədr müavini, Vətəndaş Cəmiyyətində Debat İctimai Birliyinin sədri Ülviyyə Axundova, təşkilatın İdarə Heyətinin üzvü, Böyük Qayıdış Gənclər İctimai Birliyinin sədri Nail Şükürov, Gənclər üçün Təhsil Mərkəzi İctimai Birliyinin sədri Fəxrəddin Həsənzadə və Gənc Müəllimlər Assosiasiyasının sədri Rüfət Əsədzadənin spikerliyi ilə keçirilən görüşdə “Post-müharibə dövründə gənclərdən olan gözləntilər və informasiya müharibəsində aktiv iştirakçılıq” mövzusu üzrə aktiv müzakirələr aparılıb.

Tələbələr müzakirələrdə təkliflərini səsləndirmiş, həmçinin spikerlərə onları maraqlandıran sualları ünvanlayıblar.

# Bakıda “İT-Akademiya”sı açılacaq

Noyabrın 5-də “Hilton Baku” hotelində Elm və Təhsil Nazirliyi və İqtisadiyyat Nazirliyinin dəstəyi ilə “İT-Akademiya”nın rəsmi açılış mərasimi keçiriləcək.

Tədbirdə Elm və Təhsil Nazirliyinin, İqtisadiyyat Nazirliyinin nümayəndələri, “Alqoritmika” beynəlxalq proqramlaşdırma və riyaziyyat məktəbinin baş direktoru, həmçinin “İT-Akademiya”nın tərəfdaşları olan “Baku Steel Company”, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin təmsilçiləri çıxış edəcəklər.

Tədbirin ikinci hissəsində isə qabaqcıl İT mütəxəssisləri sahə ilə bağlı bilik və təcrübələrini bölüşəcək, “Sıfırdan karyera: İT sahəsində fəaliyyətə necə başlamaq olar?” və “Azərbaycanda İT-nin inkişaf perspektivləri” mövzularında müzakirələr aparacaqlar. Tədbirdə həmçinin “İT-Akademiya” kurslarının təqdimatı olacaq və bu barədə iştirakçılara ətraflı məlumat veriləcək.

Tədbirdə iştirak üçün aşağıdakı link vasitəsilə əvvəlcədən qeydiyyatdan keçmək lazımdır: *http://it-academy.az/opening?utm_source=press*

# “Nazarbayev İntellektual Məktəbləri” ilə Azərbaycanın ümumi təhsil müəssisələri arasında əlaqələr qurulacaq





## Qazaxıstanın nümayəndə heyəti Azərbaycana səfər edib

Qazaxıstanın aparıcı ümumi təhsil müəssisələrindən biri olan “Nazarbayev İntellektual Məktəbləri”nin nümayəndə heyəti ölkəmizdə səfərdə olub.

Səfər çərçivəsində elm və təhsil naziri Emin Əmrullayev nümayəndə heyəti ilə görüş keçirib. Görüş zamanı “Nazarbayev İntellektual Məktəbləri” ilə Azərbaycanın ümumi təhsil müəssisələri arasında birbaşa əlaqələrin qurulması ətrafında fikir mübadiləsi aparılıb, bu barədə təkliflər səsləndirilib.

Nümayəndə heyəti həmçinin Bakı şəhərində yerləşən 20 nömrəli məktəb-lisey, Fizika, riyaziyyat və informatika təmayüllü lisey, Bülbül adına orta ixtisas musiqi məktəbi və Bakı Avropa Liseyini ziyarət edib. Görüşlər zamanı “Nazarbayev İntellektual Məktəb”ləri ilə yerli ümumi təhsil müəssisələri arasında əməkdaşlığın perspektivləri müzakirə olunub, təcrübə mübadiləsinin əhəmiyyəti vurğulanıb. Qonaqlar ümumi təhsildə həyata keçirilən “STEAM”, “Rəqəmsal bacarıqlar” layihələri barədə ətraflı məlumat əldə ediblər.

Azərbaycan Respublikasının Təhsil İnstitutunda da (ARTİ) qonaqlarla görüş keçirilib. Görüşdə Qazaxıstanın nümayəndə heyəti ARTİ ilə qarşılıqlı əməkdaşlıqda maraqlı olduqlarını ifadə edib.

Qeyd edək ki, oktyabrın 31-dən başlayan səfər noyabrın 3-də başa çatıb.

## SABAH bilik yarışlarının qalibləri mükafatlandırılıb





Noyabrın 2-də Elm və Təhsil Nazirliyinin SABAH qrupları layihəsi çərçivəsində təhsil, İT və mühəndislik üzrə bilik yarışları qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Tədbirdə çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov SABAH qrupları çərçivəsində təşkil edilən bilik yarışlarını tələbələrin inkişafında, onların təlim və peşə hazırlığı üzrə biliklərinin dərinləşməsində və peşəkar kadr kimi yetişmələrində mühüm addım kimi dəyərləndirib. Nazir müavini Vətən müharibəsində qazanılan qələbədə elm və texnologiyanın mühüm rolundan danışaraq gələcəyimizin təhsilin inkişafı və innovasiyalar üzərində qurulmasının vacibliyini vurğulayıb. Firudin Qurbanov yüksəkixtisaslı mütəxəssis kimi formalaşmaq, sürətlə dəyişən əmək bazarında rəqabətədavamlı olmaq üçün tələbələrin bilik, bacarıq və müvafiq vərdişlərini daim inkişaf etdirməli olduqlarına diqqət çəkib.

Firudin Qurbanov çıxışının sonunda qaliblərə uğurlar arzulayıb.

Daha sonra qaliblər təltif edilib.

Qeyd edək ki, sözügedən bilik yarışları istedadlı tələbələrin aşkar edilməsi, tələbələrin elmi-yaradıcı təşəbbüslərinin artırılması, onların sağlam rəqabət şəraitində elmi araşdırma fəaliyyətinə təşviq edilməsi və müvafiq ixtisaslar üzrə müxtəlif ali təhsil müəssisələrinin SABAH qrupları tələbələrinin inteqrasiyası məqsədilə təşkil olunub.

## BMU beynəlxalq akkreditasiya prosedurlarına hazırdır

**Rektor Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentliyin nümayəndələri ilə görüşüb**

Bakı Mühəndislik Universitetinin (BMU) rektoru, professor Havar Məmmədov Akkreditasiya və Reytinq üzrə Müstəqil Agentliyin (Independent Agency For Accreditation and Rating - IAAR) nümayəndələri ilə görüşüb.

Görüşdə Havar Məmmədov BMU-nun gənc universtitet olmasına baxmayaraq, artıq ölkənin aparıcı ali təhsil müəssisələri sırasında yer aldığını, fəaliyyətini beynəlxalq əlaqələrin daha da genişləndirilməsi, müasir standartların tətbiqi üzərində qurduğunu qeyd edib. Rektor BMU-nun müasir maddi-texniki bazası, eyni zamanda elektron təhsil mühiti, ingilis dilinə üstünlük verən tədris sistemi, təhsilin yüksək keyfiyyətdə tədrisi, BMU ilə Koreyanın İNHA Universiteti arasında ikili diplom proqramının icrası və s. haqda qonaqlara ətraflı məlumat verib.

Universitetdə təhsilin keyfiyyətinin təmin edilməsi istiqamətində görülən işləri də nəzərə çatdıran rektor BMU-nun beynəlxalq akkreditasiyaya göstərdiyi maraqdan söz açaraq, bu prosedurlara hazır olduğunu bildirib. Beynəlxalq akkreditasiya prosesinin əhəmiyyətini önə çəkən Havar Məmmədov bunun ali təhsil ocaqları üçün (təhsilin keyfiyyətinin artırılması, beynəlxalq nüfuzun yüksəldilməsi, xarici tələbələrin qəbulu, xarici ölkələrdə diplomların tanınması və s.) üstünlüklərini vurğulayıb.

IAAR-ın məsləhətçisi, professor Olqa Yanovskaya təmsil etdiyi təşkilatın fəaliyyəti haqda zəruri informasiyalara toxunub. Bildirib ki, IAAR təhsildə keyfiyyətin təminatı üzrə aparıcı beynəlxalq akkreditasiya agentliyi kimi 2011-ci ildə yaradılıb. Agentlik Avropa Keyfiyyət Təminatı Reyestrinə (EQAR) daxil olmaqla yanaşı, Ali Təhsildə Keyfiyyət Təminatı üzrə Avropa Assosiasiyasının (ENQA) tamhüquqlu üzvüdür.

Beynəlxalq akkreditasiyanın əsas prinsiplərini diqqətə çatdıran O.Yanovskaya deyib ki, bu,təhsilin keyfiyyətini təmin etmək üçün dünyada ən geniş yayılmış, effektiv modeldir. Akkreditasiyanın rəqabət üstünlüklərinə gəlincə, bunun universitetlərə geniş imkanlar qazandırdığını söyləyən IAAR-ın təmsilçisi bu sırada yüksək keyfiyyətli təhsil və xidmətlərin təminatının təsdiqi olaraq ali təhsil müəssisəsi tərəfindən verilən kvalifikasiyanın beynəlxalq səviyyədə tanınmasını, qlobal təhsil məkanına inteqrasiya imkanlarının genişlənməsini, beynəlxalq təhsil mühitində universitetlərin nüfuzunun artmasını qeyd edib.

BMU müəllimlərinin Agentlik tərəfindən təşkil olunan seminarlara qatılması ilə bağlı istəyini də dilə gətirən O.Yanovskaya bildirib ki, təlimləri başa vuran seminar iştirakçıları akkreditasiya üzrə beynəlxalq ekspert kimi qurumun bazasında yer ala bilərlər.

Görüşdə IAAR-da beynəlxalq əməkdaşlıq üzrə Baş direktorun müavini Timur Kanapyanov, Dövlət İmtahan Mərkəzinin (DİM) Yoxlama-ölçmə materiallarının işlənməsi departamentinin müdiri Natiq Əliyev çıxış edərək, qlobal reallıqlar fonunda beynəlxalq akkreditasiyanın önəmindən bəhs ediblər.

Tədbir beynəlxalq akkreditasiyanın əsas prinsipləri və mərhələləri ilə bağlı müəllimləri maraqlandıran sualların cavablandırılması və qarşılıqlı fikir mübadiləsi ilə başa çatıb.

## Apellyasiya Şurasının növbəti iclası keçirilib




Noyabrın 1-də elm və təhsil nazirinin müavini, nazirliyin Apellyasiya Şurasının sədri Firudin Qurbanovun rəhbərliyi ilə Şuranın növbəti iclası keçirilib.

“Microsoft Teams” platforması üzərindən keçirilən iclasda Elm və Təhsil Nazirliyinin Hesabatvermə və icraya nəzarət sektorunun aparıcı məsləhətçisi vəzifəsinə namizədlər Püstəxanım Qəniyeva, İlahə Əliyeva və Aygül Babayevanın müsahibə nəticələri ilə bağlı şikayətlərinə baxılıb.

İclasda müsahibə komissiyaları üzvlərinin təqdim etdiyi məlumat və videogörüntülər əsasında şikayətlər araşdırılıb. Yekunda 1 şikayətin təmin edilməsi, 2 şikayətin isə qismən təmin olunması və yenidən müsahibənin təşkili barədə Şura tərəfindən qərar qəbul olunub.

## AzMİU-da I kurs tələbələri ilə görüş

Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) rektoru, professor Gülçöhrə Məmmədova yüz illik təhsil ənənəsini özündə əks etdirən İnşaat fakültəsinə qəbul olan birinci kurs tələbələri ilə görüşüb. Görüşdə prorektorlar, fakültə dekanları, kafedra müdirləri, professor-müəllim heyətinin üzvləri və ictimai təşkilatların nümayəndələri də iştirak ediblər.

Rektor G.Məmmədova əvvəlcə I kurs tələbələrini universitetə qəbul olmaları münasibətilə təbrik edib, onlara nailiyyətlər arzulayıb.

Çıxışına I və II Qarabağ müharibəsində, eləcə də dövlətimizin suverenliyi uğrunda canını fəda edən şəhidlərimizin, o cümlədən AzMİU-nun şəhid tələbə və məzunlarının xatirəsinin anılmasından sonra davam edən rektor gəncləri hər şeydən öncə vətənpərvər olmağa, şəhidlərimizin canı bahasına qoruduğu müstəqilliyimizi bilik və savadları ilə möhkəmləndirməyə çağırıb.

Professor G.Məmmədova daha sonra Azərbaycan Memarlıq və İnşaat Universitetinin tarixinə nəzər salaraq universitetin 1975-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradıldığını və bu günə qədər minlərlə mütəxəssis hazırladığını tələbələrin diqqətinə çatdırıb.

AzMİU-nun dünyanın ən qabaqcıl universitetləri ilə əməkdaşlıq əlaqələrindən, ikili diplom layihələrindən, tələbələrin asudə vaxtlarının səmərəli təşkili məqsədi ilə universitetdə yaradılan şəraitdən danışan rektor tələbələri təhsillə yanaşı, ictimai işlərdə də aktiv olmağa çağırıb.

Sonra AzMİU-nun prorektorları, professor Akif Qasımov və Orxan Naqdiyev çıxış edərək universitetdə tədrisin təşkili və şəffaf imtahan sistemi, nizam-intizam qaydaları və sosial məsələlərlə bağlı ətraflı məlumat veriblər.

Sonda tələbələrin sualları cavablandırılıb.

# İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) illik toplantısı ilk dəfə Bakıda




Noyabrın 2-də Bakıda PISA İdarə Heyətinin 54-cü görüşünə start verilib.

PISA İdarə Heyətinin iclası ilə əlaqədar dünyanın 46 ölkəsindən 70-dən çox ekspert hazırda Bakıda səfərdədir. Pandemiyadan sonra ilk dəfə hibrid formada keçirilən tədbirdə ümumilikdə 150-dən çox nümayəndə iştirak edir.

Görüşün plenar sessiyasının açılışında çıxış edən elm və təhsil naziri Emin Əmrullayev bu yüksək səviyyəli tədbirin Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda ilk dəfə olaraq Azərbaycanda keçirilməsindən məmnunluq hissi duyduğunu vurğulayıb.



Azərbaycanlı şagirdlərin beynəlxalq qiymətləndirmə tədqiqatlarında əldə etdikləri nəticələrdən danışan Emin Əmrullayev bildirib ki, təhsilin inkişafı ilə bağlı Dövlət Strategiyasında PISA nəticələri də əsas keyfiyyət standartı olaraq müəyyən edilib.

Sözügedən tədbirin ölkəmizin təhsil ictimaiyyəti üçün kifayət qədər yeni bir təcrübə olduğunu qeyd edən elm və təhsil naziri şənbə günü İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) ilə birgə fərqli ölkələrdən gələn mütəxəssislərin də iştirakı ilə qiymətləndirmə sahəsində keçiriləcək konfransın çox böyük əhəmiyyətə malik olduğunu iştirakçıların diqqətinə çatdırıb.

Emin Əmrullayev çıxışının sonunda iştirakçılara uğurlar arzulayıb.

Daha sonra görüş sessiyalarla işini davam etdirib.

Qeyd edək ki, tədbir 4 noyabr tarixinədək davam edib.

# Hesablama Palatası, UNEC və Gürcüstan Dövlət Audit İnstitutu arasında üçtərəfli memorandum imzalanıb



Azərbaycan Respublikasının Hesablama Palatası, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) və Gürcüstan Dövlət Audit İnstitutu arasında üçtərəfli memorandumun imzalanması mərasimi keçirilib.

Hesablama Palatasında keçirilən imzalanma mərasimində Palatanın sədri Vüqar Gülməmmədov, UNEC-in rektoru professor Ədalət Muradov, Gürcüstan Dövlət Audit İnstitutunun direktoru Gela Tsiklauri və digər qonaqlar iştirak ediblər.

Qurum rəhbərləri memorandumun məqsədinin Hesablama Palatası, UNEC və Gürcüstan Dövlət Audit İnstitutu arasında elmi-praktik əlaqələrin inkişaf etdirilməsi, ixtisaslı kadr hazırlığının təmin olunması, qarşılıqlı maraq doğuran sahələrdə mövcud təcrübəni bölüşməklə münasibətlərin inkişafının təşviq edilməsi, təhsilalanların peşə-təcrübi bilik və bacarıqlarının artırılması, eləcə də “Dövlət sektorunda audit”in həyata keçirilməsi istiqamətində potensial kadr hazırlığının təmin edilməsi olduğunu bildiriblər. Əməkdaşlığın hər üç tərəf üçün faydalı olacağından əminliklərini ifadə ediblər.

Çıxışlardan sonra Hesablama Palatası, UNEC və Gürcüstan Dövlət Audit İnstitutu arasında üçtərəfli memorandum imzalanıb.

Memoranduma əsasən “Dövlət sektorunda audit” istiqaməti çərçivəsində Hesablama Palatasının əməkdaşları tərəfindən UNEC tələbələri üçün mühazirə, təlim və ustad dərslərin keçirilməsi, birgə layihələrin, konfrans və seminarların təşkili, həmçinin kadr hazırlığının təmin edilməsi məqsədilə yüksək təhsil göstəricisi olan tələbələrlə Hesablama Palatasının əməkdaşlarının görüşü, müvafiq sahə üzrə yüksək nəticə göstərmiş tələbələrə xüsusi sertifikatların verilməsi, Palatanın müvafiq struktur bölmələrində təcrübə və əlavə təlimlərin keçirilməsi nəzərdə tutulub.

# Professor Martin Rainer BDU-da mühazirə deyib

Türkiyənin Orta Doğu Texniki Universitetinin Tətbiqi riyaziyyat fakültəsinin professoru, kosmologiya sahəsində tanınmış alim Martin Rainer Bakı Dövlət Universitetinin (BDU) Fizika fakültəsinin professor-müəllim və tələbə heyəti qarşısında mühazirə ilə çıxış edib.




Martin Rainer “Dolaşıq konform zərrəcik domenlərindən Dirac-Milne kainatına doğru” (“From entangled conformal particle domain to a Dirac-Milne universe”) adlı mühazirədə kosmologiyanın bir sıra aktual məsələlərinə toxunub.

Alim, ilk növbədə, asılı olmayan dəyişənlərdən ibarət sistemlərdə səbəbiyyət mexanizmini izah etmək üçün konseptual modellərdən bəhs edib. O, dinləyicilərə Minkovski dörd ölçülü fəza — zaman, işıq konusu və ikili konuslar fəzaları barədə məlumat verib. Belə sistemlərdə elementar zərrəcikləri təsvir edərkən kvant mexanikası qarşısında yaranan problemləri vurğulayıb.

Martin Rainer daha sonra “kvant dolaşıqlığı” barədə danışıb. Bildirib ki, Alain Aspect, John Clauser, Anton Zeilinger foton cütündə kvant dolaşıqlığını təsdiq edən eksperimentlərin nəticələrinə görə 2022-ci ildə Nobel mükafatına layiq görülüblər. “Quantum entanglement”, yəni, kvant dolaşıqlığı hadisəsinin mahiyyəti odur ki, iki və daha çox hissəcikdən ibarət sistemdə zərrəciklərdən birinin kvant halının dəyişməsi digər zərrəciyə ani olaraq təsir edir. Bu konseptdən çıxış edərək maddə, anti-maddə sisteminin, yəni kainatın bir sıra məsələlərini Dirak-Milne modeli çərçivəsində izah etmək mümkündür. Bu model anti-maddənin mənfi qravitasiya kütləsinə malik olduğunu göstərir, maddə-anti-maddə qarşılıqlı təsirinin təbiətini isə itələmə xarakterli təsvir edir. Beləliklə, “quantum entanglement” anlayışı çərçivəsində anti-maddə və maddənin bir-birindən ayrılıqda öyrənilməsi mümkün hesab edilir. Kosmoloji baxımdan bu model standart ΛCDM modelindən fərqli olaraq kainatı kosmoloji sabitsiz (“qaranlıq (gizli) enerjisiz”) və itələyici anti-maddəsiz (“qaranlıq (gizli) maddə”siz) təsvir etməyə imkan verir. Bu modelin əsas üstünlüyü ondan ibarətdir ki, model çərçivəsində kainatın yaşını onun genişlənməsi faktını nəzərə almaqla əvvəlki modellərə nəzərən daha dəqiq hesablamaq mümkündür.

Seminarın sonunda məruzə ətrafında müzakirələr aparılıb və iştirakçıların sualları cavablandırılıb.

# ADNSU-da Əhməd Cavadın 130 illik yubileyi qeyd olunub



Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) Azərbaycanın istiqlal şairi, həyatını bütünlüklə millətinin hürr və azad yaşaması uğrunda mübarizəyə həsr etmiş Əhməd Cavadın 130 illik yubileyi ilə bağlı tədbir keçirilib.

Tədbiri universitetin Humanitar fənlər kafedrasının müdiri, professor Camal Mustafayev açaraq Əhməd Cavadın yaşadığı dövrdə mövcud ictimai-siyasi proseslərə şərh edib, sovet rejiminin, Stalin repressiyalarının millətimizin tarixinə vurduğu zərbələrdən, yüzlərlə insanın, o cümlədən Əhməd Cavadın taleyinə yazılan faciələrdən söz açıb. Qeyd edib ki, sovet rejiminin “xalq düşməni” damğası vurduğu Əhməd Cavad Azərbaycanı müstəqil, doğma xalqını xoşbəxt görmək istəyən və buna görə də canını fəda edən unudulmaz böyük şair, tanınmış maarifçi və ictimai xadimdir.

Sonra universitet tələbələrinin hazırladığı “Şahid və Şəhid şair”adlı bədii-sənədli tamaşa təqdim olunub. Tamaşada Əhməd Cavad müəllim, şair, dost və nəhayət, öz amalı uğrunda şəhid olan vətənpərvər kimi canlandırılıb. Səhnəciklərdə Əhməd Cavadla yanaşı, onun silahdaşları Hüseyn Cavid, Mikayıl Müşfiq və şairin həyat yoldaşı Şükriyyə xanımın obrazları da yer alıb. Tamaşa ilə paralel nümayiş etdirilən kinofilmdə isə Əhməd Cavadın həyat və yaradıcılığından bəhs edilib.

Yubiley mərasimini yekun nitqi ilə tamamlayan ADNSU-nun rektoru, professor Mustafa Babanlı qeyd edib ki, Əhməd Cavad Azərbaycan ədəbi-bədii fikir tarixində istiqlal şairi kimi özünəməxsus dəst-xətti ilə seçilən, bütün qəlbi ilə bağlı olduğu doğma xalqının müstəqillik ideallarına həyatı boyu sadiq qalmış unudulmaz şəxsiyyətdir. Belə bir şəxsiyyət haqqında universitetin əməkdaşları və tələbələri tərəfindən gecənin təşkil edilməsini yüksək qiymətləndirən rektor tamaşanın ssenaristi Vəfa Abbasova-ya, təşkilatçısı Süreyya Nağıyevaya, Tələbə Həmkarlar İttifaqına və əməyi keçən bütün əməkdaşlara təşəkkürünü bildirib. O, həmçinin müasir Azərbaycan gəncliyinin, o cümlədən ADNSU tələbələrinin tariximizə və ədəbiyyatımıza, onları yazan və yaradan şəxsiyyətlərə olan istəklərini yüksək dəyərləndirib.

# Tələbələr arasında tərcümə müsabiqəsi

Gəncə Dövlət Universitetinin (GDU) Xarici dillər fakültəsində Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə “Şuşa İli” çərçivəsində “Şəhidlər ölmür” adlı yazılı tərcümə müsabiqəsi keçirilib.

GDU-nun humanitar məsələlər üzrə prorektoru Gülsüm Fətəliyeva və universitetin Xarici dillər fakültəsinin dekanı Əjdər Əsgərov müsabiqə iştirakçılarına uğurlar arzulayıb, bu təşəbbüsü yüksək qiymətləndirib və tələbələri ictimai həyatda fəal olmağa çağırıb.

Qeyd edilib ki, gənclərin vətənpərvər ruhda yetişməsi qürurverici haldır.

Müsabiqə çərçivəsində 44 günlük Vətən müharibəsi şəhidləri haqqında yazılar xarici dillərə tərcümə olunub. Müsabiqənin nəticələrinə görə 1-ci yerə çıxan Nübar Fərzəliyeva Fəxri fərmanla təltif edilib və ona pul mükafatı verilib. Svetlana Hüseynova 2-ci, Ayxan Əliyev isə 3-cü yeri tutaraq Fəxri fərmanla təltif olunub.

# Keramika nümunələrindən ibarət sərgi

Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində ilk dəfə olaraq keramika nümunələrindən ibarət sərgi nümayiş olunub. Burada Təsviri incəsənət müəllimliyi və Rəngkarlıq ixtisası üzrə təhsil alan tələbələrin hazırladığı əl işləri sərgilənib.

Universitetin rektoru Elbrus İsayev tələbələrin iştirakı ilə keçirilən sərgilərin xüsusi əhəmiyyətə malik olduğunu qeyd edib. Bildirib ki, müasir dövrdə keramika sahəsinə diqqət xeyli artıb və tələbələrin bu sahəyə maraqlı olmaları sevindirici haldır. E.İsayev sərgilərin universitet rəhbərliyi tərəfindən diqqət mərkəzində saxlanıldığını deyib, gənc istedadlara bu istiqamətdə uğurlar arzulayıb.

İncəsənət fakültəsinin dekanı, Naxçıvanın Əməkdar rəssamı Cavid İsmayılov muxtar respublikada təsviri incəsənət sahəsində yaradılan imkanlardan və göstərilən qayğıdan danışıb. Diqqətə çatdırılıb ki, təşkil olunan sərgilər gənclərin bacarıqlarının inkişafında əhəmiyyətli rol oynamaqdadır. Gələcəkdə bu sahənin daha da inkişaf etməsində müəyyən işlərin görüləcəyi, eyni zamanda, universitetdə keramika sənətinin inkişafı üçün addımların atılacağı diqqətə çatdırılıb.

Təsviri incəsənət kafedrasının müəllimi, Azərbaycanın Xalq rəssamı, professor Hüseynqulu Əliyev keramika sənətinin tarixindən və onun əhəmiyyətindən danışaraq, bu sənət növünün köklərinin qədim tarixə söykəndiyini vurğulayıb.

Sonra sərgiyə baxış keçirilib. 40-a yaxın keramika nümunəsinin nümayiş olunduğu sərgidə boşqablar və digər fiqurlar üzərində bədii boyakarlıq nümunələri öz əksini tapıb. Qədim boyakarlıq üslubu olan miniatürlər, Naxçıvan ərazisində yerləşən dünya əhəmiyyətli tarixi abidələr, “Naxçıvan Dövlət Universitetinin 55 illiyi”nə həsr olunan universitet binaları, qədim toy adət-ənənələrimizin əks olunduğu keramika nümunələri, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılovun rəsm əsərləri və başqa eksponatlar sərgidə nümayiş etdirilib.

Sonda yaradıcı tələbələrə diplomlar təqdim olunub.

# Lənkəran Dövlət Dram Teatrında “Casus” tamaşasının premyerası olub

Oktyabrın 29-da Lənkəran Dövlət Dram Teatrında Xalq yazıçısı Kamal Abdullanın “Casus” əsəri əsasında hazırlanan tamaşanın premyerası keçirilib.

Tamaşanın quruluşçu rejissoru Lənkəran Dövlət Dram Teatrının baş rejissoru Anar Babalı, quruluşçu rəssamı Tərlan Sadıqov, bəstəkarı Azər Hacıələsgərlidir.

Səhnə əsərində Xalq artisti Qabil Quliyev (Dədə Qorqud), Əməkdar artist Sucəddin Mirzəyev (Qazan xan), aktyorlar Əlibala Əsgərov (Bayandur xan), Qızılgül Quliyeva (Boğazca Fatma), Aynur Əhmədova (Burla xatun), Miraslan Ağayev (Şirşəmsəddin), Allahverən Babayev (Bəkil), Əbülfəz Axundov (Aruz qoca), Səyyad Əliyev və Emil Rzayev (Beyrək) çıxış ediblər.

“Casus” sirr və onun açılması üzərində qurulub. Əsərdə Dədə Qorqud obrazı hadisələrin axarını istiqamətləndirir. O, Oğuz tayfaları arasında casusluq edənin kim olduğunu Qazan xana söyləyir. Ancaq Boğazca Fatmanı da məsələdən xəbərdar edən özü olur. Dədə Qorqud Oğuzun təəssübkeşi kimi çıxış edir. Məhz bu səbəbdən casusun kim olduğunu söyləsə də, o biri yandan da məsələyə insani mövqedən yanaşır, Boğazca Fatmanı onun casus oğlunun başına gələcək fəlakətdən xəbərdar edir, ona ölümdən xilas yolunu göstərir. Niyə, nə səbəbə? Oğuz elinin bilicisi niyə Oğuz elinə xəyanət edən bir casusu hifz edir?

Premyerası böyük uğurla keçirilən tamaşanı əsərin müəllifi, Xalq yazıçısı Kamal Abdulla, eləcə də bir sıra tanınmış elm və mədəniyyət xadimləri də izləyib.

# Təhsilin İnkişafı Fondundan DƏSTƏK

## 300-dək akademik heyət üzvü və tələbənin IELTS imtahanı üzrə ödənişləri qarşılanacaq







Bu Təhsilin İnkişafı Fondu, Təhsildə Keyfiyyət Təminatı Agentliyi və 6 ali təhsil müəssisəsi arasında "Universitetlərin elmi-pedaqoji heyət üzvləri və təhsilalanların IELTS imtahanına təşviq edilməsi haqqında" əməkdaşlıq müqaviləsinin imzalanması nəticəsində reallaşacaq.

Oktyabrın 28-də "JW Marriott Absheron Baku" otelində keçirilən imzalanma mərasimində çıxış edən elm və təhsil nazirinin müavini Muxtar Məmmədov yüksək peşə bacarıqlarına malik insan kapitalı yaratmaq üçün ali təhsil müəssisələrinin keyfiyyət baxımından beynəlxalq səviyyədə rəqabətədavamlılığının təmin olunmasının hazırda diqqətdə saxlanılan ən aktual məsələlərdən biri olduğunu qeyd etdi: "Dövlət başçısı İlham Əliyev tərəfindən 2021-ci il fevralın 2-də imzalanmış "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində də məhz ali təhsilin beynəlxalq rəqabətə davamlılığının təmin edilməsi ölkəmizin qarşısında əsas hədəflərdən biri kimi müəyyən olunmuşdur. Və bunun əsasında da son illərdə qəbul olunmuş dövlət proqramları həmin hədəfə nail olmaq üçün xidmət göstərməkdədirlər".

Nazir müavini "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"-nın əhəmiyyətinə toxunaraq adıçəkilən sənədin ali təhsil müəssisələrimizin rəqabətliliyinin artırılmasına imkan verdiyini, bunun ölkədə insan kapitalının inkişafına dövlət dəstəyinin təzahürü olduğunu bildirdi. Dövlət Proqramında nəzərdə tutulan əsas istiqamətlərə toxunan Muxtar Məmmədov ali təhsil sahəsində həyata keçirilən bir sıra beynəlxalq layihələri diqqətə çatdırdı: "Ali təhsildə əhatəliliyin, keyfiyyətin, beynəlmiləlləşmənin, ikili proqramların artırılması da bizim qarşıya qoyduğumuz əsas hədəflərimizdəndir. 4 beynəlxalq ikili diplom proqramı uğurla həyata keçirilməkdədir".

"Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"ndan da söz açan nazir müavini əsas məqsədin gənclərə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilalma imkanları yaratmaqla, ölkəmizin dayanıqlı inkişafını təmin edəcək və qlobal çağırışlara cavab verəcək yeni texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, yüksəkixtisaslı peşəkar kadrların hazırlanmasını təmin etmək olduğunu söylədi. Qeyd olundu ki, proqram çərçivəsində artıq 350-yaxın gəncimiz dünyanın ən nüfuzlu ali təhsil müəssisələrində bakalavriat və magistratura səviyyələrində təhsil almaqdadır.

Ali təhsil müəssisələrində ingilis dilinin tədrisinin, təkmilləşdirilməsinin əhəmiyyətinə, bu sahəyə diqqətin daha da artırılmasının zəruriliyinə toxunan nazir müavini bununla bağlı fikirlərini bölüşdü: "İngilis dilinin mükəmməl öyrənilməsi, müasir dövrdə elmi fəaliyyətin beynəlxalq səviyyədə tanıdılması nöqteyi-nəzərindən impakt faktorlu jurnallarda bizim alimlərimizin elmi məqalələrinin dərc olunması, dövlətlərarası önəmli akademik layihələrdə fəal iştirakın təmin edilməsi, elmi-pedaqoji heyətin qabaqcıl ölkələrin təcrübəsindən yararlanması olduqca vacibdir. Bütün bunlar, reallaşdırılan layihələr təbii ki, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın "Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı" komponenti üzrə nəzərəçarpacaq irəliləyişlərin əldə olunmasına xidmət edən əsas amillərdəndir".

Çıxışının sonunda Muxtar Məmmədov Təhsilin İnkişafı Fondu, Təhsildə Keyfiyyət Təminatı Agentliyi və 6 ali təhsil müəssisəsi arasında "Universitetlərin elmi-pedaqoji heyət üzvləri və təhsilalanların IELTS imtahanına təşviq edilməsi haqqında" əməkdaşlıq müqaviləsinin imzalanmasının əhəmiyyətini yüksək dəyərləndirərək hamıya uğurlar arzuladı.

Çıxış üçün söz alan Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov rəhbərlik etdiyi fondun fəaliyyəti, strateji hədəfləri barədə geniş məlumat verdi. Bildirildi ki, ölkə Prezidenti İlham Əliyevin müvafiq fərmanına uyğun olaraq Elm və Təhsil Nazirliyinin tabeliyində yaradılan Təhsilin İnkişafı Fondunun fəaliyyətləri peşə təhsili istisna olmaqla təhsilin bütün pillələrini əhatə edəcəkdir: "Fondun fəaliyyətləri təhsil və iqtisadiyyatın inteqrasiyasının gücləndirilməsi, ictimai və sosial əhəmiyyətli layihələrin həyata keçirilməsi, təhsil müəssisələrinin maddi-texniki bazasının müasir tələblərə uyğunlaşdırılması və təhsilin inkişafını təsdiq edən mexanizmlərin hazırlanmasından ibarətdir. Qısa bir müddət ərzində ali təhsil müəssisələri ilə bağlı 5 əsas strateji fəaliyyət istiqaməti müəyyən olunmuşdur. Strateji fəaliyyət istiqamətlərində akademik mobillik proqramlarının icrası, ali təhsil müəssisələrinin institusional inkişafı, elmi jurnal, nəşrlər və dərsliklərin hazırlanması, universitet-sənaye iş birliyinin inkişafında iştirak və ali təhsil müəssisələri tələbələrinin inkişafına dəstək və digər məsələlər əhatə olunur. Ümumi və məktəbəqədər təhsil pillələri üzrə strateji fəaliyyət istiqamətləri üzərində də işlər gedir".

Elnur Nəsibov fondun reallaşdırdığı layihələr, həmçinin tamamlanma mərhələsində olan digər təşəbbüsləri barədə də tədbir iştirakçılarını məlumatlandırdı. Ölkənin aparıcı ali təhsil müəssisələrindən 6-sı ilə imzalanacaq əməkdaşlıq müqaviləsinin məramını açıqlayan sədr bu layihənin həyata keçirilməsində əsas məqsədin universitetlərin elmi-pedaqoji heyət üzvlərinin və təhsilalanların ingilis dilini mənimsəməsi üçün əlverişli şəraitin yaradılması, IELTS imtahanı verməyə təşviq edilməsi və beləliklə, həmvətənlərimizin beynəlxalq təcrübə və müasir təhsil imkanlarından faydalanaraq əldə etdikləri bilik və bacarıqları ölkəmizin inkişafı naminə görülən işlərə töhfə vermələrinə dəstək olduğunu söylədi.

Təhsildə Keyfiyyət Təminatı Agentliyinin İdarə Heyətinin sədri Ülkər Səttarova hazırkı dövrdə xarici dil biliklərinin artırılmasının, xüsusilə, ingilis dilinin tədrisinin, öyrənilməsinin vacibliyindən söz açdı: "Hazırda bir sıra müasir ixtisaslarda ingilis dilini bilmədən çalışmaq mümkün deyil. İngilis dili texnologiya və beynəlxalq kommunikasiya üzrə qlobal dil sayılır, ədəbiyyatın bütün növlərinin, texniki kitab və dərgilərin, eləcə də elmi jurnalların dilidir. Təqdirəlayiq haldır ki, bizim bir sıra ali təhsil müəssisələrində müəyyən ixtisaslar üzrə tədris ingilis dilində aparılır və bununla bağlı müsbət işlər görülməkdədir".

Ülkər Səttarova Elm və Təhsil Nazirliyinin reallaşdırdığı müxtəlif innovativ layihələr, dünya təcrübəsini öyrənməklə tətbiq olunan yeniliklərdən danışdı. Bu layihənin də başlıca məqsədinin məhz ali təhsil ocaqlarının müəllim və tələbələrinin ingilis dilini mükəmməl mənimsəmələri üçün əlverişli şəraitin yaradılması olduğunu bildirdi.

Britaniya Şurasının (British Council) Azərbaycan üzrə direktoru Nərgiz Hacıyeva çıxış edərək beynəlxalq təşkilatın əsas fəaliyyət istiqamətlərindən, əlaqələrindən bəhs etdi. Qeyd olundu ki, təşkilat dünyanın 100-dən çox ölkəsində mədəniyyət və incəsənət, ingilis dili, təhsil və vətəndaş cəmiyyəti sahələrində fəaliyyət göstərir. Hər il 20 milyondan çox insana üz-üzə və 500 milyondan çox insana onlayn, televiziya və nəşrlər vasitəsilə xidmət edir: "British Council 1993-cü ildən etibarən Azərbaycanda fəaliyyətdədir. Ölkəmizdə hər il minlərlə tələbəyə, təhsil işçisinə, siyasətçiyə, akademikə, tədqiqatçıya, yaradıcı insana və sahibkara xidmət göstərir. British Council olaraq bizim əsas hədəflərimizdən biri ingilis dilinin tədrisi, müəllimlərə, təhsilalanlara öyrənmə, peşəkar inkişaf proseslərində yardımçı olmaqdır".

Təmsil etdiyi təşkilatın Elm və Təhsil Nazirliyi ilə birgə əməkdaşlığından danışan Nərgiz Hacıyeva, həmçinin ölkəmizin bir sıra ali təhsil, orta ümumtəhsil müəssisələri ilə qurulan səmərəli əlaqələrinə də toxundu: "Bu gün imzalanan tərəfdaşlığa əsasən biz daha çox universitetlərlə IELTS imtahanı çərçivəsində işləyəcəyimiz üçün çox məmnunuq. Təhsilin İnkişafı Fondu, Təhsildə Keyfiyyət Təminatı Agentliyi və ölkənin 6 ali təhsil müəssisəsi arasında imzalanacaq əməkdaşlıq müqaviləsi çərçivəsində həyata keçiriləcək layihənin uğurlu və davamlı olması üçün tərəfdaş olaraq əlimizdən gələni edəcəyik. Britaniya Şurasını bu gözəl təşəbbüsə - layihəyə cəlb etdiyinizə görə təşəkkür edirik".

Sonra layihənin benefisiar qurumları olan Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru Mustafa Babanlı, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov, Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev və Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova çıxış etdilər. Rektorlar rəhbərlik etdikləri ali təhsil müəssisələrində ingilis dilinin tədrisi vəziyyətindən, bir sıra ixtisaslar üzrə tədrisin ingilis dilində aparılmasından, müəllim və tələbələrin bu dil üzrə danışıq bacarıqlarının inkişafı ilə bağlı həyata keçirilən işlərdən, beynəlxalq layihələrdən söz açdılar. Çıxış edənlər imzalanacaq müqaviləyə müvafiq olaraq həyata keçiriləcək layihəni müəllim və təhsilalanlar üçün gözəl bir fürsət kimi dəyərləndirdilər.

Sonda Təhsilin İnkişafı Fondu, Təhsildə Keyfiyyət Təminatı Agentliyi və 6 ali təhsil müəssisəsi arasında "Universitetlərin elmi-pedaqoji heyət üzvləri və təhsilalanların IELTS imtahanına təşviq edilməsi haqqında" əməkdaşlıq müqaviləsi imzalandı.

Müqaviləyə əsasən layihə çərçivəsində IELTS imtahanında iştirak edən və yüksək bal toplayan 300-dək akademik heyət üzvü və tələbənin bu imtahan üzrə ödənişlərinin Təhsilin İnkişafı Fondu tərəfindən qarşılanması planlaşdırılır.

**Samirə KƏRİMOVA**

# Şagird davranış qaydaları müzakirə olunub





"Şagird davranışı və valideyn-məktəb münasibətlərinin tənzimlənməsi qaydaları" mövzusunda "dəyirmi masa" təşkil olunub.

"Dəyirmi masa"da elm və təhsil nazirinin müşaviri Elnur Nəsibov, Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsinin müdiri Elnur Əliyev, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) müdiri Mehriban Vəliyeva və digər qonaqlar iştirak ediblər.

Tədbirdə elm və təhsil nazirinin müşaviri Elnur Nəsibov çıxış edərək hər iki sənədin ümumi təhsil müəssisələrində şagird davranış qaydaları və valideyn-məktəb münasibətinin tənzimlənməsi ilə bağlı çərçivəni müəyyən etdiyini deyib. Nazir müşaviri bildirib ki, bu qaydalar təhsilalanların bir sıra hüquq və vəzifələrinin təmin olunması məqsədilə ümumi təhsil müəssisəsində nizam-intizamı tənzimləyən qayda və prosedurları müəyyən edir, həmçinin məktəb nüfuzunun artırılması işinə dəstək verir. Mövcud qaydalarla bağlı ictimaiyyətin məlumatlılıq səviyyəsinin artırılması məsələsinə toxunan Elnur Nəsibov bu məqsədlə təhsil işçilərindən ibarət spikerlərin müəyyənləşdirilməsini təklif edib.

Daha sonra çıxış edən BŞTİ-nin müdiri Mehriban Vəliyeva məktəb idarəçiliyində, şagird-müəllim, məktəb-valideyn münasibətlərində sistemlilik yaratmaq üçün vahid qaydaların tətbiqinin zəruri olduğunu diqqətə çatdırıb. BŞTİ müdiri əlavə edib ki, bu qaydalar məktəblər tərəfindən qoyulmuş qadağalar kimi deyil, əksinə uşaqlar üçün daha rahat mühit və sivil davranışın tənzimlənməsi imkanlarıdır.

Elm və Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarə olunması şöbəsinin müdiri Elnur Əliyev də öz növbəsində hər iki sənədin mahiyyəti barədə ətraflı məlumat verərək bunun məktəb idarəetməsində səmərəliliyin artırılması işinə böyük töhfə verəcəyini diqqətə çatdırıb. Elnur Əliyev təklif olunan qaydaların ictimai müzakirələrdən sonra daha da təkmilləşdiriləcəyini və çərçivə sənədi kimi faydalı olacağını vurğulayıb.

Tədbirdə çıxış edən digər qonaqlar qaydaların vahid bir sənəddə cəmləşdirilməsini müsbət qiymətləndiriblər.

"Dəyirmi masa"da məktəbdaxili münasibətlər, əlverişli öyrənmə mühiti, şagirdlərin dərsə davamiyyəti, çətin tərbiyə olunan şagirdlər, səmərəli məktəb mühiti haqqında da geniş müzakirələr aparılıb, müvafiq mövzularla bağlı təklif və tövsiyələr səsləndirilib.

# "Mənim gündəliyim"

## Oxu və yaradıcılıq müsabiqəsinin qalibləri təltif olunub





Bakı Şəhəri üzrə Təhsil İdarəsi (BŞTİ) tərəfindən keçirilən "Mənim gündəliyim" oxu və yaradıcılıq müsabiqəsi qaliblərinin təltifetmə mərasimi keçirilib.

Tədbirdə BŞTİ-nin müdiri Mehriban Vəliyeva, İdarənin müvafiq struktur bölmə rəhbərləri, direktorlar, müəllimlər və qalib adını qazanan məktəblərin şagirdləri iştirak ediblər.

Tədbir Dövlət Himninin səsləndirilməsi və Vətən şəhidlərinin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

BŞTİ-nin müdiri Mehriban Vəliyeva "Mənim gündəliyim" oxu və yaradıcılıq müsabiqəsində qalib gəlmiş şagirdləri təbrik edərək hər birinə uğurlar arzulayıb. Şagirdlərin dünyagörüşünün, biliyinin və mənəvi aləminin zənginləşməsində mütaliənin rolunun əvəzsiz olduğunu deyən İdarə müdiri bu baxımdan "Mənim gündəliyim" oxu və yaradıcılıq müsabiqəsinin məktəbliləri mütaliəyə həvəsləndirdiyini, cəmiyyətdə kitaba olan marağın artırılmasına xidmət etdiyini nəzərə çatdırıb.

Tədbirdə BŞTİ-nin müdir müavini Hüseyn Əsgərov, İdarənin İnkişaf layihələri sektorunun müdiri Günay Qurbanova, İctimaiyyətlə əlaqələr sektorunun müdiri Bəşarət Məmmədov, Ümumi sektorun müdiri Sevinc Rəsulova müsabiqənin qaliblərini təbrik edib, onlara təhsildə və yaradıcılıqda uğurlar arzulayıblar.

Daha sonra müsabiqədə I, II və III yerə layiq görülən qaliblərə medallar təqdim olunub, xüsusi fəallığı ilə fərqlənənlər isə Tərifnamə və Təşəkkürnamə ilə təltif ediliblər.

Şagirdlər onlara göstərilən diqqətə görə təşəkkürlərini bildirib, bundan sonrakı təhsil fəaliyyətlərində daha da əzmlə çalışacaqlarını ifadə ediblər.

Tədbir şagirdlərin ifasında "Cəngi" rəqsi ilə başa çatıb.

# Təhsil işçiləri Türkiyədə təcrübə proqramında iştirak ediblər




Oktyabrın 23-dən 30-dək paytaxtın təhsil işçiləri Türkiyədə təcrübə proqramında iştirak ediblər.

Təcrübə proqramı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Türkiyə Cümhuriyyəti Milli Təhsil Nazirliyinin tərəfdaşlığı ilə reallaşıb.

Proqramda Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) müdir müavini Xəyalə Əhmədzadə, Keyfiyyətə nəzarət sektorunun müdiri Anar Mustafazadə, İnformasiya təminatı sektorunun müdiri Tural Mahmudov, Təminat-təchizat sektorunun müdiri Səccət Mahmudov iştirak ediblər.

Təcrübə proqramının əsas məqsədi Türkiyə Cümhuriyyətində təhsilin yerli idarəetmə mexanizmləri, elektron idarəetmə işinin təşkili, təhsil müəssisələrində keyfiyyət monitorinqlərinin aparılma qaydaları, maliyyə və maddi resursların idarə edilməsinin daha dərindən öyrənilməsindən ibarət olub.

Səfər çərçivəsində İstanbul Şəhər Təhsil İdarəsinin rəhbər heyəti ilə fərdi görüşlər keçirilib, qarşılıqlı fikir mübadiləsi aparılıb. Həmçinin nümayəndə heyəti İstanbulun təhsil müəssisələrini ziyarət edərək müxtəlif istiqamətli müşahidələr aparıb, təhsil müəssisələrinin rəhbərləri ilə görüşüb.

Görüşlərdə tədrisin təşkili, məktəbin səmərəli idarə olunması, istedadlı uşaqlarla iş, valideynlərlə əməkdaşlıq, gələcəyin məktəb modelləri və digər təcrübələrlə tanış olublar.

Səfər çərçivəsində BŞTİ-nin nümayəndələri İstanbul şəhərinin tarixi-memarlıq abidələrini ziyarət edib və müxtəlif tədbirlərə qatılıblar.

Qeyd edək ki, təcrübə mübadiləsi və əməkdaşlığın təkmilləşdirilməsi məqsədilə təşkil olunan qarşılıqlı səfərlərin davam etdirilməsi nəzərdə tutulur.

# Paytaxt məktəblərində rəqəmsal summativ qiymətləndirmələr keçirilir

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki bir sıra ümumi təhsil müəssisələrində rəqəmsal summativ qiymətləndirmələr keçirilir.

Rəqəmsal summativ qiymətləndirmələr Microsoft TEAMS proqramı vasitəsilə aparılır.

Sualların tərtib olunması və qiymətləndirmə prosesi məktəb rəhbərliyi və müvafiq fənn müəllimləri tərəfindən həyata keçirilir. Şagirdlər nəticələri barədə yerində məlumat əldə edirlər.

Qeyd edək ki, rəqəmsal summativ qiymətləndirmə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin kollegiya qərarı ilə təsdiq edilmiş "Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (məktəbdaxili qiymətləndirmənin) aparılması Qaydası"na əsasən keçirilən ənənəvi summativ qiymətləndirmələrin müvafiq proqram təminatından istifadə edərək təşkilidir.

Rəqəmsal summativ qiymətləndirmələr tədris ili üzrə dövlət ümumi təhsil müəssisələrində texniki təminat və internet olduğu təqdirdə IV-XI siniflərdə bütün fənlər üzrə (fiziki tərbiyə, təsviri incəsənət, musiqi, gənclərin çağırışaqədərki hazırlığı, texnologiya istisna olmaqla) aparılır.

Rəqəmsal summativ qiymətləndirmələrin keçirilməsinin əsas məqsədləri təhsilalanların və təhsilverənlərin rəqəmsal bacarıqlarının təkmilləşdirilməsi, təhsilalanların nəticələrinə dair çevik hesabatlılığın aparılaraq fərdi yanaşmanın təmin olunması, valideyn və qanuni nümayəndələrə təhsilalanın nailiyyətini izləmə imkanlarının yaradılması, təhsilalanların rəqəmsal keçirilən beynəlxalq qiymətləndirmə tədqiqatlarına hazırlığının təmin edilməsi və ümumi təhsil müəssisələrində kağız israfının qarşısının alınmasından ibarətdir.

# Respublika fənn olimpiadalarının məktəb mərhələsi keçirilib

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrində Respublika fənn olimpiadalarının məktəb mərhələsi keçirilib.

Respublika fənn olimpiadalarının rayon (şəhər) mərhələsi iştirakçılarının tərkibinin müəyyənləşdirilməsi məqsədilə təşkil edilən məktəb mərhələsində VIII-XI sinif şagirdləri iştirak edib.

Məktəb mərhələsində şagirdlər Azərbaycan dili və ədəbiyyat, tarix, coğrafiya, riyaziyyat, fizika, kimya, biologiya, informatika fənləri üzrə biliklərini sınayıblar. İlk turda yaxşı nəticə göstərən məktəblilər Respublika fənn olimpiadalarının rayon (şəhər) mərhələsi hazırlıqlarına cəlb ediləcəklər.

Qeyd edək ki, Respublika fənn olimpiadalarının keçirilməsində əsas məqsəd istedadlı şagirdləri aşkara çıxarmaq, ayrı-ayrı fənlər üzrə istedadı və yaradıcı təfəkkürü ilə fərqlənən məktəblilərin potensial imkanlarını inkişaf etdirmək, şagirdlərin ixtisas və peşə seçiminə hazırlanması üçün əlverişli zəmin yaratmaqdan ibarətdir.



# “Biliklərin dövlətə, regiona faydalı ola bilməsini hədəfləyirik”

## Universitetlərin keyfiyyəti onların cəmiyyətə, dövlətə, ölkəyə verdiyi əlavə dəyər və elmə verdiyi töhfələrlə ölçülür

### Ankara Hacı Bayram Vəli Universitetinin rektoru professor Dr. Yusuf Tekinlə müsahibə



*– Hörmətli rektor, ilk növbədə, müsahibə üçün vaxt ayırdığınıza görə sizə təşəkkürümü bildirirəm!*

– Əvvəla, xoş gəlmisiniz. Sizin vasitənizlə qəlbən çox yaxın olduğum Azərbaycan türklərinə salamlarımı və sayğılarımı çatdırıram. İstər şəxsən, istərsə də qurum olaraq biz azərbaycanlı tələbələrimizi öz tələbələrimiz, öz övladlarımız və Azərbaycandakı təhsil adamlarını da öz həmkarlarımız kimi qəbul edirik, əlaqələrimizi də bu şəkildə inkişaf etdirməyə üstünlük veririk.

**Yeni universitetlər yaradılmalıdır, lakin onlar müəyyən sahələrə fokuslanmalıdırlar**

*– Ankara Hacı Bayram Vəli Universiteti Qazi Universitetindən ayrılaraq quruldu. Universitetin yaranma səbəbini dinləyək...*

– Tarixə nəzər saldıqda müəyyən zamanlarda ali təhsil müəssisələrinin sayı artmağa başlamışdır. Dünyanın bütün ölkələrində belədir: qurulmuş universitetin tərkibində çox fərqli strukturlara malik təhsil bölmələri meydana çıxır. Məsələn, Qərbdə universitetlərin institutlaşma tarixinə nəzər saldıqda da bunu görürsən. Türkiyədə universitetlərin institutlaşmasına baxanda da eyni şeyi görürsən. Bir çox fərqli fənlərə aid tədris proseslərinin bir dam altında verildiyi universitetlər zamanla ixtisaslaşır və tematik olurlar. Yəni, hər bir universitet müəyyən sahələrdə imtiyazlı mövqeyə çatır və bu istiqamətdə fəaliyyət göstərir. Ali təhsildə də oxşar çərçivə mövcuddur. Qərbdəki müasir universitet strukturuna nəzər saldıqda onlar universitetdə müəyyən sahələrə fokuslanmaya başlayırlar.

Bu gün Türkiyədə 200-dən çox universitet var; dövlət və özəl universitetlər. İndi dünyada baş verən prosesləri paralel olaraq izlədiyimiz zaman görürük ki, sayının artacağı təbiidir, amma say artdıqdan sonra bu dəfə keyfiyyətə diqqət yetirmək lazımdır. Keyfiyyətə fokuslanma prosesinin işləməsinə baxdığımızda müəyyən sahələrdə ixtisaslaşan universitet anlayışı ön plana çıxır. Əvvəlki vəzifələrimdə də bunu təmin etməyə çalışmışam. Yeni universitetlər yaradılmalıdır, lakin onlar müəyyən sahələrə fokuslanmalıdırlar.

**“Ankarada sosial elmlərə əsaslanan bir universitetin olması çox vacib idi”**

*– Hocam, bir az da dəqiq ifadə etsək?..*

– Məsələn, səhiyyə sahəsində, mühəndislik, texnologiya kimi fənlərdə ixtisaslaşma olsun. Sosial elmlərə ixtisaslaşan universitetlər olsun.

Düşünürəm ki, bu ixtisaslaşmanı ən azı ilkin səviyyədə reallaşdırmış ola bilərik. Başqa bir məsələ, təəssüf ki, şərq cəmiyyətlərində sosial elmlərə qarşı maraq azdır. Dəqiq elmlər, mühəndislik və sağlamlıq kimi elm sahələri həmişə sosial elmlərdən irəlidə sayılır. Ancaq Qərb cəmiyyətlərinə nəzər saldıqda belə bir kateqoriya yoxdur. Orada sosial elmlər digər elm sahələri ilə bərabər qəbul edilir, resurslar ayrılır, tədqiqatlar aparılır.

Bizdə isə sosial elmlər universitet strukturu baxımından bir az geridə qaldı. Bu, təkcə bizim üçün belə deyil. Bizimlə eyni mədəniyyətə malik bir çox ölkələrdə oxşar vəziyyət var. Ona görə də, Ankarada sosial elmlərə əsaslanan bir universitetin olması çox vacib idi. Bölünmənin mühüm səbəblərindən biri də, tələbə və işçi sayı baxımından yüz minə yaxınlaşan bir böyüklüyün ortaya çıxması idi...

*– Bəs bu vəziyyət nə kimi problem yaradırdı?*

– Belə deyək; bu, həm idarəçilər, menecerlər, həm də büdcə, işçi heyəti və buna bənzər planlaşdırma baxımından idarə edilən olmur. Ona görə də, universitetlərin bu şəkildə bölünməsi həm müəyyən sahələr üzrə ixtisaslaşmaq, həm də onları idarə oluna bilən ölçüyə salmaq baxımından ön plana çıxdı. Belə universitetlərdən biri də Qazi Universiteti idi.

Qazi Universitetində səhiyyə, mühəndislik və sosial elmlər bölmələri var idi. 80 minə yaxın tələbəsi və 5 mindən çox pedaqoji heyəti olan bir universitet idi. Vəziyyət belə olunca, Qazi Universitetinin tematik hala gətirilməsi ön plana çıxdı. Bu mənada Ankara Hacı Bayram Vəli Universiteti Qazi Universitetindən Sosial elmlər və incəsənətlə bağlı bölmələrin alınaraq fərqli bir universitet yaradılması nəticəsində meydana gəldi.

**“Universiteti daha yüksək səviyyəli mövqeyə daşımaq üçün səy göstəririk”**

*– Universitet olaraq, qarşınızda nə kimi məqsədiniz var?*

– 2018-ci ildə qurulan universitetimizin vizyonu və əsas məqsədi: Türkiyədə sosial elmlər və sənət baxımından öndə gedən bir universitet olması, ayrıca, bu sahədə akademik yeniliklərə öncülük etmək. Mən qurucu rektor kimi 2018-ci ildə burada işə başlamışam. Hazırda bu vizyona uyğun olaraq universiteti daha yüksək səviyyəli mövqeyə daşımaq üçün səy göstəririk.

*– Hörmətli rektor, necə düşünürsünüz, keyfiyyətli universitet nədir?*

– İzah edim: Universitet ölkədə yaşanan problemlərə həll yolları istehsal etmək gücünə malikdirmi? Akademik olaraq hazırlanan məlumatlar ölkənin problemlərinin həllinə töhfə verirmi? Mən buna baxıram. Universitetlərin keyfiyyəti onların cəmiyyətə, dövlətə, ölkəyə verdiyi əlavə dəyər və elmə verdiyi töhfələrlə ölçülür. Əgər o, əlavə dəyər yaradırsa, mənim fikrimcə, o universitet ixtisaslı universitetdir. Əlavə dəyər yaratmırsa, o universitet israfdır, ixtisaslı universitet deyil. Bu mənada, biz bir universitet olaraq təkcə akademik biliklər deyil, həm də istehsal etdiyimiz biliklərin cəmiyyətə, dövlətə, ölkəyə və regiona faydalı ola bilməsini hədəfləyirik. Mənim nəzərimdə keyfiyyətli universitet budur.

**“Azərbaycanın bir çox universitetləri ilə əməkdaşlıq protokollarımız var”**

*– Türkiyədə qədim tarixə malik çox nüfuzlu universitetlər var. Ankara Hacı Bayram Vəli Universiteti isə yeni yaradılıb. Universitetinizi tanıtmaq baxımından hansı işlər görürsünüz?*

– İndi belə universitetlərin tanınması üçün 2-3 illik bir müddətdə universiteti tanıtdığımızı demək xəyaldır. Məqsədimiz on il ərzində maraq dairəmizdə olan bölgələrdən tələbələri cəlb etməkdir: Biri Orta Asiya Türk Cümhuriyyətləri, digəri isə Şimali Afrika. Biz buraya diqqətimizi yönəltdik və oradakı akademik dairələrlə də bir çox əməkdaşlıq protokolları imzaladıq. Məsələn, Azərbaycanın bir çox universitetləri ilə əməkdaşlıq protokollarımız, akademik əməkdaşlığımız, dəyişim proqramlarımız var. Biz bunu çox sağlam şəkildə edirik. Ayrıca, ölkə səfirlikləri vasitəsilə də təbliğat işlərimizi həyata keçiririk. Xaricdən Türkiyəyə tələbə gətirmək səlahiyyətinə malik olan Xaricdəki Türklər və Əqraba İcmaları Başkanlığı ilə (YTB) çox sıx əməkdaşlığımız var. Xeyli sayda əcnəbi tələbələrimiz var...

*– Xarici tələbələr üçün DİLMERiniz var...*

– Bəli, biz “DİLMER”də çox şey edirik. Daha bir struktur var ki, onun missiyasını da öz üzərimizə götürmüşük (Red.: Türkiyə və Yaxın Şərq üçün Dövlət İdarəçilik İnstitutu). TODAİE bu bölgədəki ölkələrə idarəçilər hazırlamaq üçün nəzərdə tutulmuşdur. Biz də onun missiyasını öz üzərimizə götürdük. Demək istədiyim odur ki, biz tələbələrdən əlavə də bu cür işlər görürük. Bölgələrdən Türkiyəyə gələn idarəçilərə qısa və ya orta müddətli təlimlər veririk.

**“Müasir inkişafları izləmək lazımdır”**

*– Siz Türkiyə Təhsil Nazirliyində müşavir vəzifəsindəykən yeni təhsil siyasətinin yaradılması istiqamətində mühüm işlər görmüsünüz.*

– Bəli. Mən universiteti bitirdikdən sonra elmi fəaliyyətə başladım. Sonra müəllim oldum. 2011-ci ildə universitetdən dövlət qulluğuna keçdim. İki ilə yaxın nazir müavini olmuşam. Daha sonra 2013-cü ildən 2018-ci ilin avqust ayına kimi təhsil nazirinin müşaviri vəzifəsində çalışdım. Mən Türkiyədə təhsil sisteminin əsas idarəçilərindən biri olmuşam. Təhsil siyasətlərinin yaradıldığı, həyata keçirildiyi, maraqlı tərəflərlə paylaşıldığı və təşviq edildiyi bir vəzifədə olmuşam.

Həmin müddətdə gördüyüm işlərdən birini sizə deyim, bu da çox vacibdir. İndi dövlətlər qurularkən, təhsil fəlsəfəsini də qurur, dövlətin məktəblərdəki təhsildən istədiyi şey çəkdiyi profildə vətəndaş yetişdirməkdir. Bu məsələlər dünyada çox sürətlə inkişaf edən prosesdir. Müasir inkişafları izləmək lazımdır; Həm təhsil proqramları, vasitələr baxımından, material baxımından izləmək, həm də tez-tez transformasiya etmək lazımdır. Uzun illər bu məsələlərlə bağlı o fəlsəfə davam etdi. 2015-ci ildə bir prosesə başladıq və bu tədris proqramına yenidən baxacağımızı dedik. Tədris proqramına dəyişiklik və 2017-ci ildə tətbiq etdik. Bu tədris proqramı dəyişikliyində aşağıdakıları proqnozlaşdırdıq; 1)Müasir inkişafların sistemə inteqrasiyası. 2)Vaxt keçdikcə uşaqlar üçün həddindən artıq yüklənmənin qarşısını alan bir kurikulum yaradıldı. Biz də Türkiyə dövlətinin vətəndaşı olmağın tələb etdiyi həssaslıqları və dəyərləri tədris proqramına daxil etmək üçün səy göstərdik. Bu da mənim üçün vacib məsələ idi.

Yenə bu dövrdə, Türkiyə Cümhuriyyətində təxminən 70 min məktəb və təxminən 700 min sinif otağının hər birində “ağıllı lövhə”lər quraşdırdıq. Müəllim daha təbaşirlə dərs demir. Dərs zamanı interaktiv lövhələrlərdən istifadə edir. Hazırda interaktiv lövhələr Türkiyənin bütün məktəblərində quraşdırılıb. Eynilə, fiberoptik şəbəkələr vasitəsilə bütün məktəblərə internetə çıxış xidməti də mövcuddur. Nazirliyin sistemində köməkçi materiallar var, müəllimlər dərsi izah etmək üçün EBA-ya yüklənmiş köməkçi videolardan istifadə edə bilirlər. Təhsil Nazirliyi (bu materiallar Təhsil Nazirliyi tərəfindən testdən keçib; həm pedaqoji, həm də metodik cəhətdən) onları açır, mühazirə oxuyandan sonra əlavə dəstək verir. Hazırda bütün məktəblərimizdə internetə çıxış xidməti var və onların hamısını dövlət mərkəzi büdcədən ödəyir. Bütün bunları biz müşavir kimi beş illik müddət ərzində etdik. Ona görə də, biz təhsil siyasətinin formalaşmasına və həyata keçirilməsinə ciddi töhfələr verdiyimizi söyləyə bilərik.

**“Bu təhlilləri uzun müddət sonra görmək olar”**

*– Yaxşı, hocam, sizcə, bu çalışmalar bugünkü təhsil sisteminin inkişafına nə dərəcədə töhfə verdi? Necə bir dəyişim oldu?*

– Təbii ki, bu təhlilləri uzun müddət sonra görmək olar. 2017-ci ildə tədris proqramında dəyişiklik edildikdən sonra bu sistemdə təhsil alan ən azı bir nəsil məzun olmalıdır. Bununla belə, dəyişikliyi təxminən belə etdik: 1)Uşaqlarımız gərəksiz və həddindən artıq məlumatları öyrənmək məcburiyyətində qalmadı. Bu, vacibdir. 2)Uşaqlarımızın dərsdə öyrəndiklərinin onların sosial həyatına necə töhfə verəcəyi ilə bağlı tədris proqramında analitik təfəkkür, analitik düşünmə bacarıqlarını yerləşdirdik.

Əvvəllər belə deyildi; Uşaq bir şey öyrənirdi, amma faydası varmıydı? Tədris proqramında onun analitik qarşılığını verməyə çalışdıq. Daha da önəmlisi, bütün dərslərin tədris proqramında bu cəmiyyəti bir arada tutan, cəmiyyətin quruluşunu gələcək nəsillərə ötürən əsas istinad dəyərlərimizi uşaqlarımıza verməyə çalışdıq. Yəni, biz necə millətik, hansı xüsusiyyətlərimiz özümüzü millət kimi müəyyənləşdirməyimizi tələb edir? Bu millətin davam etməsi üçün uşaqlardan, tələbələrdən, gənclərdən gözləntilərimiz nədir? Dərslərdə bunları üstüörtülü və ya açıq şəkildə uşaqlarımıza öyrətməyə çalışdıq. Bizim proqnozumuz budur ki, bir nəsil bu təhsili aldıqdan sonra bu, daha ölçülə bilən olacaq.

**“Biz cəmiyyətin bütün təbəqələrinin fikirlərini aldıq”**

*– Bəs, sizcə, gənclər bu tədris proqramı dəyişiklikləri nəticəsində gözlədiklərini əldə etdilərmi?*

– Biz tədris proqramına dəyişiklik edərkən 200 minə yaxın insanın fikrini aldıq. Bunun içində şagirdlər, yəni hazırda Təhsil Nazirliyinin tabeliyində olan məktəblərdə oxuyanlar var, oradan məzun olan universitet tələbələri var, valideynlər, müəllimlər, məktəb rəhbərləri, akademiklər var. Onların hamısı ilə qruplar şəklində müsahibə aparıldı, seminarlar təşkil etdik və onların yeni tədris proqramından gözləntilərini aldıq.

Tədris proqramı sizi qane edirmi? – sualını verdik. Hansı dəyişikliklərə ehtiyac olduğunu soruşduq. Bu qədər insanın rəyini aldıqdan sonra nazirlikdə oturduq, bu təklifləri sıraladıq və fikirləri həyata keçirməyə çalışdıq. Biz bunu edərkən cəmiyyətin bütün təbəqələrinin fikirlərini aldıq. Mətn formalaşdıqdan sonra cəmiyyətin müxtəlif təbəqələrinə göndərdik. Ziyalı dairələr, həmkarlar ittifaqları, universitetlər, qeyri-hökumət təşkilatlarından münasibət soruşduq. Bu da kifayət etmədi, bitdikdən sonra onu bu dəfə nazirliyin internet səhifəsində istifadəyə verdik. İstəyən oradan baxıb öz rəy və təkliflərini bizə göndərə bildi. Beləliklə, müxtəlif seqmentlərin də fikirlərini öyrənmiş olduq.

**“Valideyn övladını sizə əmanət edir”**

*– Hörmətli rektor, dünya təhsil sistemlərinə nəzər saldıqda, bu gün təhsil sistemləri idarəçilərdən nə kimi keyfiyyətlər tələb edir?*

– İndi təhsil idarəediciləri digər sahələrdən çox fərqli profilə sahib olmalıdır. Çünki digər sektorlardakı idarəedicilər bilik və yetkinlik səviyyəsi yüksək olan insanlarla işləyir. Amma təhsil idarəsi belə deyil. Təhsil idarəsi deyəndə iki qrup var ki, onları yönləndirmək lazımdır. Onlar kimdir? 1)Müəllim və digər çalışanlar. 2)Təhsilalanlar - Siz şagirdləri/tələbələri eyni məntiqlə idarə edə bilməzsiniz. Təhsilalanları necə idarə edəcəksiniz? Onlara peşəkar idarəçi kimi yox, ana, ata, böyük qardaş, bacı məntiqi ilə yaxınlaşıb idarə edə bilərsiniz. Bu keyfiyyəti təhsil menecerinə qazandırmaq lazımdır.

*– Valideyn də var...*

– Bəli, bu da var... Ən sıxıntılı məsələlərdən biridir. Çünki valideyn dediyimiz şəxs öz övladını sizə əmanət edir. Təhsil idarəçisinə deyir: Bu uşağın anası və ya atası olun. Bu uşaq tək uşaqdır, bunun üçün bacı-qardaş ol. Ona müəllim olmaq kifayət etmir. Sizi çoxlu rollar gözləyir: dost, ana, ata, bacı, qardaş və s. Onların hamısı məktəbdən və müəllimdən, yəni, təhsil sistemindən gözlənilir. Bunlardan hər hansı biri əskik olduqda təhsil idarəçisi tənqid edilir. Ona görə də düşünürəm ki, təhsil idarəçisinin idarə etməkdə ən çox çətinlik çəkəcəyi qrup valideynlərdir. Mənim təcrübəm bunu göstərir.

Dünyanın bənzər ölkələri ilə danışanda, bir çox müxbirimiz və həmkarlarımızla söhbət edəndə görürük ki, bütün dünyada əsas problem budur. Yəni, belə düşünün, valideynlər uşaqlarının, məsələn, həkim və ya mühəndis olmağını planlaşdırır. Sonra təhsil müdirinin yanına gəlir, deyir, uşağımı həkim elə, mühəndis elə. Əgər bunu bacarmırsınızsa, sizi uğursuz hesab edir. Deyirsən ki, “Bax, əziz valideyn, sənin övladının qabiliyyəti fərqlidir. İnkar edir, deyir, “xeyr, mütləq etməlisiniz”. Təhsil idarəedicisi burada empatiya qura bilən, cəmiyyətin həssaslığını çox yaxşı öyrənə bilən insan olmalıdır. Yalnız klassik qanunvericiliklə hərəkət edən təhsil idarəçisinin uğur şansı yoxdur. Uğur qazanacaq təhsil inzibatçısı bütün bu kütləni - müəllimləri, işçiləri, şagirdləri və valideynləri idarə edə biləcək, onların dilini anlayacaq, onlarla rahat ünsiyyət qura bilən profilə malik olmalıdır.

**“Bizim ortaq mədəniyyətimiz, tariximiz, dilimiz var”**

*– Azərbaycan-Türkiyə təhsil əlaqələrinə töhfəniz...*

– Bizim ortaq tariximiz, ortaq mədəniyyətimiz, ortaq dilimiz var. Biz Azərbaycan və bölgədəki digər Türk Cümhuriyyəti ölkələri ilə ciddi təhsil əlaqələri qurmağa çalışırıq. Əvvəlki vəzifələrimdə də buna çalışdıq. Hətta təklif etdim ki, heç olmasa, ortaq tarix proqramı yaradaq, ümumi tarix dərsi tədris edək. Biz belə bir prosesə başladıq, amma bilmirəm, hazırda vəziyyət necədir?! Bu, bizim ən vacib işlərimizdən biridir. Biz bunu etməliyik!

*– Hörmətli rektor, ümid edirəm, iki ölkə arasında təhsil əlaqələrinin ciddi nöqtələrə çatması üçün başlatdığınız çalışmalarınızın müsbət nəticələrini yaxın zamanda görə biləcəyik.*

– İnşallah!..

*– Son olaraq, suallarımı ətraflı cavablandırdığınız üçün Sizə təşəkkür edirəm!*

– Mən təşəkkür edirəm!..

**Şəhla ASLAN,**
*araşdırmacı yazar,*
*təhsil araşdırmaları üzrə*
*doktorant*

Hər bir ölkənin beynəlxalq aləmdə rolunu müəyyən edən başlıca amillərdən biri onun təhsilidir. Maddi-mənəvi dəyərlərin və strateji gücün göstəricisi olan təhsil hər zaman əsas və gərəkli fəaliyyət istiqaməti olub. Azərbaycanın bütün sahələrdə olduğu kimi, təhsil sferasında da inkişaf prosesi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin "Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır" məntiqi fikri onu göstərir ki, həqiqətən də belə bir prinsipin seçilməsi Azərbaycanda təhsil siyasətinin əsas qayəsini təşkil edib. Son dövrlər həyata keçirilən islahatlar da ulu öndər Heydər Əliyevin təhsil strategiyasının nə qədər fundamental bir konsepsiya olduğunu göstərir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan milli təhsil strategiyasını bu gün uğurla davam etdirən Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində icra edilən dövlət proqramları təhsilimizin keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymasına və yüksək nəticələrin əldə olunmasına xidmət edir. "Təhsil hər bir dövlətin gələcəyidir... Elə etməliyik ki, bütün uşaqlar savadlı, bilikli olsunlar, gələcəkdə özləri üçün gözəl həyat qura bilsinlər, dövlətimiz üçün dəyərli vətəndaşlar olsunlar. Ona görə təhsilin keyfiyyəti indi ön plana çıxır", - deyən Prezident İlham Əliyevin təhsilə olan bu qayğı və diqqəti onu göstərir ki, ölkə rəhbəri gələcəyin daha etibarlı təminatı üçün Azərbaycan təhsilinin inkişafını dövlət siyasətinin başlıca istiqamətlərindən biri olaraq görür.

# Vahid sistem əsasında institusional qiymətləndirmə

XXI əsrin tələblərinə uyğun olaraq qloballaşan dünyamızda təhsildə, xüsusən də ali təhsildə milli və beynəlxalq səviyyədə keyfiyyət təminatı ən vacib, hətta öndə gələn faktordur. Keyfiyyət təminatının ali təhsilin idarə olunmasında ayrıca sahə olaraq yaranması XIX əsrin sonlarında, ABŞ-da ilk akkreditasiya təşkilatlarının meydana çıxdığı vaxta təsadüf edir. Bu sahədə səmərəli nəticələr əldə edilməsi üçün ali təhsil müəssisələrində (ATM) effektiv keyfiyyət təminatını (KT) formalaşdırmaq və yüksəltmək vacibdir.

Fikrimizcə, XXI əsrin tələblərinə cavab verən ATM-ni formalaşdırmaq üçün, ilk növbədə, görüləsi iş keyfiyyət təminatı sisteminin (KTS) qurulması və təkmilləşdirilməsidir.

Ümummilli lider Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən təhsilin inkişaf strategiyası böyük qətiyyət və uğurla davam etdirilmiş, bu istiqamətdə həyata keçirilən tədbirlər təhsil infrastrukturunun müasirləşdirilməsinə və keyfiyyət göstəricilərinin daha da artırılmasına imkan vermişdir. Belə ki, Azərbaycan ali təhsil sistemində Boloniya prinsipləri çərçivəsində Avropa Kredit Transfer Sisteminin tətbiq olunması, Avropanın və dünyanın aparıcı universitetlərinin müsbət təcrübəsinin ölkəmizə gətirilməsi ilə ali təhsildə KT-nin inkişafına şərait yaranmışdır. XXI əsrin tələblərinə uyğun olaraq rəqabətqabiliyyətli insan kapitalının yetişdirilməsi, tələbə qəbulu qaydalarının təkmilləşdirilməsi, universitetlərdə keyfiyyətin təminatı mərkəzlərinin yaradılması və məzunların işlə təmin olunmasına xidmət edən karyera mərkəzlərinin fəaliyyətində effektivliyin yüksəldilməsi istiqamətlərində ciddi uğurlar əldə olunmuşdur. Azərbaycan 2015-ci ildən Ali Təhsildə Keyfiyyətin Təminatı üzrə Avropa Reyestri (EQAR) təşkilatına üzv seçilmişdir. Qeyd edək ki, EQAR Boloniya prosesinə üzv ölkələrin mandatı və Ali təhsildə keyfiyyətin təminatı üzrə Avropa Assosiasiyasının (ENQA), Avropa Universitetlər Assosiasiyasının (EUA), ATM-lərin Avropa Assosiasiyasının (EURASHE) və Avropa Tələbələr Birliyinin (ESU) təşəbbüsü əsasında ali təhsildə keyfiyyətə nəzarət üçün yaradılmış ilk rəsmi qurumdur.

Ölkə Prezidenti İlham Əliyevin 29 dekabr 2019-cu il tarixli Fərmanı ilə Təhsil Nazirliyinin tabeliyində Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) yaradılmışdır. Agentlik Azərbaycanda və beynəlxalq səviyyədə qəbul edilmiş standartlara əsaslanan ali, orta ixtisas və əlavə təhsilin keyfiyyətinin müstəqil qiymətləndirilməsi ilə məşğuldur.

Universitetlərin reytinqi mövzusu son vaxtlar beynəlxalq və yerli təcrübədə kifayət qədər aktualdır. 2015-ci ildə ali təhsil sisteminin Avropa Ali Təhsil Məkanının tələblərinə daha da uyğunlaşdırılması məqsədi ilə Elm və Təhsil Nazirliyinə dəstək göstərilməsi üzrə Tvinninq layihəsinə başlanılması Avropa Ali Təhsil Məkanında Keyfiyyət Təminatı üzrə Standartlar və Təlimatların (ESG) Azərbaycan ali təhsilində tətbiq edilməsinə imkan verdi. Layihənin icbari nəticələrindən biri Azərbaycan ali təhsilində ESG-yə uyğun keyfiyyət təminatı üzrə standartların və təlimatların (AzST) hazırlanması və sənədin üç ali təhsil müəssisəsində sınaqdan keçirilməsidir. Azərbaycan Dövlət Pedaqoji Universiteti seçilmiş üç ali təhsil müəssisəsindən biridir.

Hazırda ADPU-da keyfiyyət göstəricilərinə görə dünyanın aparıcı universitetləri arasında rəqabətədavamlı təhsil sisteminin qurulması və onun məzmununun qabaqcıl beynəlxalq təcrübəyə əsasən yenilənməsi kimi prioritet istiqamətlər üzrə işlər görülməkdədir. Buna nümunə olaraq "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində Azərbaycan Dövlət Pedaqoji Universitetinin ABŞ-ın 200 illik tarixi olan Corc Vaşinqton Universiteti ilə ikili diplom proqramı sazişi imzalanmasını, Pedaqoji Universitetdə tədrisin keyfiyyətinin artırılması üçün davamlı tədbirlərin həyata keçirilməsini, beynəlxalq proqramların uğurla icrasını qeyd edə bilərik.

"Keyfiyyətin Təminatı" şöbəsi ADPU-nun rektorunun əmri ilə 2018-ci il 14 sentyabr tarixində yaradılmışdır. Şöbənin əsas məqsədi müvafiq sahədə qabaqcıl təcrübənin öyrənilməsi, ümumi və ali təhsil pillələrində daxili və xarici keyfiyyət təminatı siyasəti, eləcə də mexanizmlərinin təkmilləşdirilməsi, bu iki təhsil pillələri arasında keyfiyyət təminatı sahəsində əlaqələrin qurulmasından ibarətdir. Bu şöbənin fəaliyyətinə hər zaman rəhbərlik tərəfindən dəstək göstərilmişdir. Universitetdə "Keyfiyyətin Təminatı" şöbəsinin missiyası keyfiyyətin artırılması və davamlı təkmilləşdirilməsi yolu ilə yüksək keyfiyyətli tədrisin təşkili, tədris planları, tədqiqat və idarəetmə işlərinin aparılması, habelə buna nail olmaq üçün keyfiyyətli sistem və prosedurların təmin edilməsi kimi fəaliyyətlərin həyata keçirilməsidir. Bu fəaliyyətlər bilavasitə universitetin üstün bir təhsil müəssisəsinə çevrilməsi, habelə əmək bazarının tələblərinə cavab verən vətənpərvər, savadlı, yüksək peşə kompetensiyasına malik məzunların hazırlanmasına kömək etməsinə xidmət edir.

Hazırda ADPU-da daxili keyfiyyət sisteminin bir aləti olan professor-müəllim heyəti üçün reytinq qiymətləndirmə sistemi qurulmuşdur, bununla yanaşı institusional qiymətləndirmə alətinin tətbiqi ilə ölçülə bilən meyarlar əsasında universitetin struktur bölmələrinin performansının müqayisəli şəkildə qiymətləndirilməsi aparılır. Qiymətləndirmənin nəticələrinin müəyyən hissəsini aşağıdakı kimi səciyyələndirə bilərik:

* 2019-cu və 2020-ci illərdə tələbələrlə onlara tədris edən professor-müəllim heyətindən məmnunluq sorğusu keçirilmişdir.
* Şöbənin əməkdaşlarının iştirakı ilə bir çox sillabuslar təhlil edilmiş və onların məzmununun əmək bazarının tələblərinə uyğunluğu ilə bağlı təkliflər təqdim edilmişdir.
* EQAC layihəsi çərçivəsində ADPU-da pilot ixtisas olaraq "İngilis dili müəllimliyi" ixtisası üzrə akademik heyət və tələbələr arasında sorğu və sorğunun nəticəsi kimi universitetlər üçün Avropa Standartları Təlimatları (ESG) üzrə təlimlər keçirilmişdir.
* 2020-2022-ci illərdə ADPU-da tədris, öyrənmə mühiti, təchizat, gözləntilərlə bağlı 60 sualdan ibarət tələbə məmnuniyyəti ilə əlaqədar meqa sorğu keçirilmiş və nəticələr müqayisəli təhlil olunmuş və sorğunun hesabatı təkliflərlə birgə rektora təqdim edilmişdir. Hesabat Elmi Şuranın iclasında geniş müzakirə edilmişdir. Bununla yanaşı, aparılan bir çox digər sorğuların məzmunu inkişaf etmiş ölkələrin nümunəsində təkmilləşdirilmişdir.
* Elektron kitabxanadan aktiv istifadəni təşviq etmək məqsədilə birinci kurs tələbələri elektron kitabxanada qeydiyyata alınmış və prosesin gedişinə şöbə tərəfindən müntəzəm monitorinqlər aparılmışdır.
* Avropa Komissiyasının 2021-2027-ci illərdə Rəqəmsal Təhsil üzrə Fəaliyyət Planı dərindən araşdırılmış və ADPU-ya uyğunlaşdırılaraq fakültə və filialların rəqəmsal təhsilə keçidi üçün təkliflər hazırlanmışdır.
* Magistr mövzuları ilə əlaqədar inkişaf etmiş ölkələrin təcrübəsi araşdırılmış və dünyada təhsil sahəsində aktual olan 20 mövzu müəyyənləşdirilərək ADPU-da magistr dissertasiya işi kimi işlənilməsi üçün təklif edilmiş, universitetdə yeni məzmunlu magistr proqramlarının tədris olunması ilə bağlı iki layihə irəli sürülmüşdür.
* ADPU məzunlarının məlumat bazasının yaradılması ilə bağlı "Məzun koordinasiya və karyera bölməsi" ilə əməkdaşlıq çərçivəsində təkliflər hazırlanmışdır.

Məlumdur ki, bir çox inkişaf etmiş ölkələrdə təhsil müəssisələrinin rəqabətliliyini təmin etmək üçün onların fəaliyyətlərini müxtəlif göstəricilər əsasında qiymətləndirirlər.

Bununla yanaşı, ilk dəfə olaraq ADPU-da "Keyfiyyətin Təminatı" şöbəsi tərəfindən 38 keyfiyyət göstərici üzrə vahid sistem əsasında fakültələr, filial və kollecin reytinq və institusional qiymətləndirməsi aparılmışdır. Qeyd edək ki, reytinq qiymətləndirilməsində əməkdaşların elmi-tədqiqat, pedaqoji fəaliyyəti, tələbə məmnunluğu və sosial aktivlik üzrə parametrlər nəzərə alınır.

İnstitusional qiymətləndirmənin aparılması prosesində qəbul olan tələbələrin sayının qəbul planında nəzərdə tutulmuş tələbələrin sayına (fakültə, filial və kollecdə) faiz nisbəti araşdırılararaq 98-100% olduğu, 2021-ci ildə bakalavr dərəcəsi alan tələbələrin sayının qəbul olan tələbələrin 2017-ci ildəki sayına nisbəti təhlil olunaraq 71-75% müəyyənləşdirilmiş, həmçinin müəssisədə elmi seminarların müəllimlərin sayına nisbətinin çox, 91-95% olduğu aşkar edilmişdir. Bununla yanaşı, təhlil prosesində MİQ imtahanının test mərhələsindən keçən bakalavrların sayının ümumi məzun olan bakalavrlara nisbətinin 66-70% olduğu, özəl təhsil müəssisəsində işləyən magistrların sayının ümumi məzun olan magistrantlara nisbəti fakültələr üzrə 66-70% müəyyənləşdirilmiş, dərsi dinlənilmiş müəllimlərin sayının müəssisənin müəllimlərinə nisbəti ən çox 96-100% olduğu aşkar edilmişdir. Həmçinin doktorantların sayının müəllimlərin sayına nisbəti ən çox 31-35% müəyyənləşdirilmiş, işlə təmin olunmuş məzunların sayının ümumi məzunlara nisbəti ən çox 71-75% nisbətində qiymətləndirilmişdir.

İnstitusional qiymətləndirmənin aparılması prosesində həmçinin, indeksli jurnallarda illik nəşrlərin sayının (WOS, Scopus) ümumi nəşrlərin sayına nisbəti fakültələr üzrə araşdırılaraq 21-25%, WOS jurnallarında dərc olunmuş əsərlərin istinad balının həmin əsərlərin sayına nisbəti araşdırılaraq ən çox, təqribən 96-100% olduğu müəyyənləşdirilmişdir. Ümumilikdə kafedra əməkdaşları ilə birgə elmi əsərlərin sayının müəssisədə ümumi əsərlərin sayına nisbəti araşdırılaraq ən çox 61-65%, müəssisədə kafedralar arası əməkdaşlıq çərçivəsində birlikdə olan elmi əsərlərin sayının müəssisədə ümumi əsərlərin sayına nisbətinin ən çox 11-15% olduğu müəyyənləşdirilmişdir. Ölkədaxili və ölkəxarici universitetlərlə əməkdaşlıq çərçivəsində birlikdə olan elmi əsərlərin sayının müəssisədə ümumi əsərlərin sayına nisbətinin isə ən çox müvafiq olaraq 11-15% və 6-10% olduğu, beynəlxalq konfranslarda nəşr edilən əsərlərin (məqalə, tezis) sayının ümumi nəşrlərin sayına nisbətinin ən çox 76-80% olduğu qiymətləndirmələr nəticəsində məlum olmuşdur.

İnstitusional qiymətləndirmə zamanı xarici dəstəklə alınmış və tamamlanmış layihələrin sayının ümumi layihələrin sayına nisbəti müəyyənləşdirilərək, patentlərin sayının müəllimlərinin sayına ən çox 1-5% nisbətində dəyərləndirilmişdir. İnstitusional qiymətləndirmədə nailiyyətlərin əldə olunmasını universitetdə artıq 4 ildir tətbiq olunan professor-müəllim heyətinin fəaliyyətinin qiymətləndirilməsinin nəticələri də təsdiq edir. Belə ki, reytinq qiymətləndirilməsinin nəticələrini ümumiləşdirərək qeyd edək ki, universitetdə professor-müəllim heyətinin fəaliyyətinin reytinq qiymətləndirilməsi universitetin tədqiqat, tədris və sosial mühitinə müsbət təsir göstərmişdir. Həmçinin bu qiymətləndirmə akademik heyətin beynəlmiləlləşməsinə və pedaqoji fəaliyyətinə çox böyük təkan vermişdir. Aparılan qiymətləndirmənin effektivliyi universitetin idarəetmə sistemində, daxili və xarici maraqlı tərəflərin dəstəkləyici ünsiyyəti və təşəbbüskarlığı hesabına formalaşmışdır. Tələbələr arasında aparılan məmnuniyyət sorğularının nəticələrinin təhlili bu fikri təsdiqləyir. Akademik heyətin reytinq qiymətləndirilməsinin onların fəaliyyətinin təkmilləşdirilməsinə böyük töhfə verdiyini nəzərə alaraq bu tip tədqiqatların davamlı olaraq aparılması məqsədəuyğundur.

Ümumilikdə yuxarıda qeyd olunanları nəzərə alaraq tam əminliklə demək olar ki, ADPU müasir rəqabətədavamlı təhsil mühitində inamla addımlayır və bu da özünü müəllim hazırlığı sahəsində məzmun, infrastruktur, professor-müəllim heyətinin səriştələrinin artırılması yönündə ardıcıl islahatlar aparılmasında göstərir. Bununla yanaşı, böyük inamla deyə bilərik ki, ADPU olaraq XXI əsrin çağırışlarını və dövlətin təhsil strategiyasının prioritetlərini əsas tutaraq təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün səmərəli idarəetmə sisteminin yenidən qurulması, bu sahədə kadr potensialının inkişaf etdirilməsi və müəllim peşəsinin nüfuzunun artırılması istiqamətində uğurlu tədbirlər həyata keçirilmişdir.

**Qalib ŞƏRİFOV,**
*ADPU-nun Keyfiyyətin təminatı şöbəsinin müdiri dosent,*

**Qərənfil MƏMMƏDZADƏ,**
*ADPU-nun Keyfiyyətin təminatı şöbəsinin mütəxəssisi*




# "KAIST-də rəqabət çox güclüdür"

## Koreyanın Qabaqcıl Elmlər və Texnologiyalar İnstitutunun tələbəsi Kamran Mehdiyev:

## "Professorlarımız tələbələri sual verməyə vadar edərək dərsi mümkün qədər tam mənimsəmələrinə kömək olurlar"

**Tanıtım:** 2004-cü il avqustun 29-da Bakı şəhərində anadan olub. VII sinfə qədər 145 və 238 nömrəli tam orta məktəblərdə, daha sonra isə Kimya-biologiya təmayüllü Respublika liseyində təhsil alib və həmin liseyin məzunudur. 2021-ci ildə ali məktəblərə keçirilən qəbul imtahanlarında iştirak edərək Bakı Ali Neft Məktəbinin Kompüter mühəndisliyi fakültəsinə daxil olub. Bu ali təhsil müəssisəsində bir il təhsil aldıqdan sonra Respublika fənn olimpiadasının qızıl medalçısı kimi Koreyanın Qabaqcıl Elmlər və Texnologiyalar İnstitutunda (KAIST) təhsilini davam etdirmək hüququ qazanıb.

Ölkəmizdə şagirdlərin istedad və bacarıqlarının erkən yaşlardan aşkar olunması, bu sahədə aparılan məqsədyönlü islahatlar və onların keyfiyyət göstəriciləri özünün bariz nümunəsini yüksəkixtisaslı, müasir bilik və səriştələrə sahib insan kapitalının formalaşmasında tapır. Şagirdlərdə elmi təfəkkürün, tədqiqatçılıq bacarıqlarının stimullaşdırılması istiqamətində atılan addımlar nəticəsində ölkəmizin gələcək elmi potensialının əsasını təşkil edən gənclərimizin sorağı artıq dünyanın nüfuzlu universitetlərindən gəlir. Onlardan biri də Kamran Mehdiyevdir.

*- Orta məktəbdə daha hansı fənlərə maraq göstərirdiniz? Hansı uğurlarınızı qeyd edə bilərsiniz?*

- Orta məktəbdə dərslərim kimya və biologiya yönümlü kurikulum üzrə keçirilsə də, fizika, riyaziyyat və informatika fənlərinə böyük maraq göstərmişəm. Lakin texniki fənlər üçün daha məqsədəuyğun görünən təmayül liseylərinə keçməmişəm.

Olimpiada uğurlarıma gəldikdə isə, 2021-ci ildə riyaziyyat fənni üzrə Respublika fənn olimpiadalarında qazandığım qızıl medalı, eləcə də yerli və beynəlxalq olimpiadalar üçün seçilən təklif etdiyim bəzi sualları nümunə göstərə bilərəm. Belə uğurların sayının yetərincə çox olmamağını olimpiadalarla olduqca gec, təxminən 9-cu sinfin sonundan məşğul olmağa başlamağımla əlaqələndirərdim. Bu sahədə ciddi nailiyyətlər qazanmaq istəyənlərə daha aşağı siniflərdən olimpiadalara hazırlaşmağı və öz üzərlərində həvəslə işləməyi məsləhət görərdim.

*- Koreyada ali təhsil sizin üçün nə dərəcədə cəlbedicidir?*

- Ali təhsil həyatıma ölkəmizdə başlasam da, bir il sonra nəzərimdə tutduğum ixtisas üçün xaricə üz tutmağı qərara aldım. Bu bir il ərzində isə lazımi biliklərə yiyələnmək və bəzi vacib sertifikatlar almaqla bərabər, proqramlaşdırma üzrə müxtəlif hakatonlarda iştirak edib bir sıra uğurlar qazandım. Düşünürəm ki, bu, mənim daha hərtərəfli yetişməyimə təkan verən faktorlardan biri idi, çünki olimpiadalar çox ciddi hazırlıq tələb edir və deyərdim ki, illərlə böyük həcmdə bir fənn üzrə fokuslanmağa məcbur olursan.

Koreyada kompüter elmləri sahəsinin güclü inkişaf etdiyi heç kimə sirr deyil. Xüsusilə KAIST-in bu sahədə özünü inkişaf etdirmək istəyənlər üçün çox yaxşı imkanlar təklif etdiyini düşünürdüm və bu səbəblə də seçimim bu universitet oldu.

*- KAIST-in tədris mühiti necədir? Hazırda hansı fənlər və ixtisas sahələri tədris olunur?*

- KAIST texniki və təbiət elmlərinə əsaslanan ixtisaslar üzrə təhsil proqramları təklif edir. Hazırda məhz bu fənlər üzrə ən əsas biliklərə yiyələnirəm. Təhsil mühitinə gəlincə isə, mühazirələr, praktik dərslər, əlavə nəzəri dərslərlə yanaşı öz üzərimizdə işləmək üçün yaradılan fürsətləri qeyd etmək istərdim, çünki burada istənilən sahədə rəqabət çox güclüdür və verilən resurslardan maksimum faydalanmaq lazım gəlir.

*- Kompüter mühəndisliyinin imkanları və gələcək perspektivləri barədə nə deyə bilərsiniz?*

- Kompüter elmləri, kompüter mühəndisliyi və oxşar ixtisaslara olan maraq dünyanın hər yerində artır. Avtomatlaşdırılmaya uduzmamaq üçün onun bir parçası olmaq lazımdır. Ortalama həyat səviyyəsinin yüksəldiyi, insanların hər imkanda işlərini daha sürətli və əziyyətsiz yolla həll etməyə çalışdığı bir dövrdə qeyd olunan sahələrə olan tələbat və beləliklə, bu sahələrdə olan rəqabətlilik də artır. İnanıram ki, kompüter elmləri kimi sonsuz sayda tətbiq imkanları olan ixtisaslar, bu sahənin ən yaxşılarından olmaq istəyənlər üçün çox yaxşı karyera imkanları vəd edir.

*- Universitetdə dərslər başlayıb. Daha çox hansı formata - məsafədən və ya hibrid modelə üstünlük verilir?*

- Bir neçə dərs istisna olmaqla bütün dərslər əyani şəkildə keçirilir. Resurslar professorlardan asılı olaraq dəyişsə də, əsasən keçilən fənn üzrə tanınmış kitablardan vəsait və ya əlavə material kimi istifadə olunur.

*- KAIST-də əcnəbi tələbələrə münasibət necədir? Müəllim-tələbə münasibətləri necədir?*

- KAIST-də dünyanın bir çox ölkələrindən olan tələbələr rahatlıqda bir yerdə təhsil alır. Tələbələrə münasibət gəldiyi ölkədən asılı olmayaraq müsbətdir. Professorlarımız isə mövzuları tam izah etməkdən savayı, tələbələri sual verməyə vadar edərək dərsi mümkün qədər tam mənimsəmələrinə kömək olurlar.

*- Dünyanın nüfuzlu ali məktəblərindən birinin tələbəsisiniz. Uğurlarınızın sirrini necə izah edərdiniz?*

- Şübhəsiz ki, uğurlarımda müəllimlərimin rolu danılmazdır. Liseydə təhsil aldığım müddətdə Arif Qəhrəmanov, Kamran Rəhimov, olimpiadalara hazırlıq dövründə isə Cəfər Cəfərov, Nazim Kazımov kimi müəllimlərdən dərs almışam və onların sayəsində riyaziyyata, eləcə də onun tətbiq sahələrinə olan marağım artmışdır.

*- Gələcək planlarınız barədə nə deyə bilərsiniz? Gələcəkdə özünüzü harada görürsünüz?*

- Bu barədə çox danışmaq istəməzdim. Qısa müddətli hədəfim universiteti uğurla bitirib maraqlandığım sahə üzrə magistr təhsili almaqdır.

**Oruc MUSTAFAYEV**

# MDU beynəlxalq təşkilatın İdarə Heyətində təmsil olunacaq

Mingəçevir Dövlət Universitetinin (MDU) rektoru Şahin Bayramov oktyabrın 25-dən 28-dək İrlandiyanın paytaxtı Dublin şəhərində Beynəlxalq Universitetlər Assosiasiyasının (IAU) 16-cı Baş Konfransında iştirak edib.



Universitetdən AZƏRTAC-a bildirilib ki, Dublin Universitet Kollecinin (UCD) ev sahibliyi etdiyi konfrans "Universitetlərin gələcək cəmiyyətə uyğunluğu və əhəmiyyəti" mövzusuna həsr olunub. Konfransa 100-ə yaxın ölkədən 300-dən artıq universitet rektoru, ali təhsil üzrə ixtisaslaşan beynəlxalq və regional təşkilatların rəhbərləri qatılıb.

Konfransın açılışında IAU Prezidenti Pam Fredman, İrlandiyanın ali təhsil naziri Simon Harris, UCD Prezidenti səlahiyyətlərini icra edən Mark Rogers və UNESCO-nun Baş direktorunun təhsil üzrə köməkçisi Stefania Giannini çıxış ediblər.

MDU-nun rektoru Ş.Bayramov konfrans çərçivəsində keçirilən "Ali təhsilin transformativ gücü" (The Transformative Power of Higher Education), "Bir-birinə bağlı gələcək üçün bilik sistemlərinin açılması" (Unlocking Knowledge Systems for an Interconnected Future), "Sabahın dünyası üçün öyrətmək və öyrənmək" (Teaching and Learning for Tomorrow's World) və "Qarşılıqlı bağlılıq və qlobal kontekstdə ali təhsilin gələcəyi" (The Future of Higher Education in an Interconnected and Global Context) adlı bölmə iclaslarında müzakirələrdə fəal iştirak edib. Bölmə iclaslarında postpandemiya dövründə ali təhsil, rəqəmsallaşma, beynəlmiləlləşmə, Davamlı İnkişaf Məqsədləri və universitetlərin davamlı inkişafda artan rolu, elmin açıqlığı, universitetlərin təhsil, tədqiqat və cəmiyyətə xidmət missiyasına yeni baxış, lokal və qlobal çağırışların balanslı şəkildə nəzərə alınması və universitet dəyərləri barədə müzakirələr aparılıb. Müzakirələr zamanı universitetlərarası əməkdaşlıq və rəqabət, ali təhsildə müxtəliflik, akademik azadlıq, universitetlərin muxtariyyəti, elm, texnologiya və innovasiya arasında qarşılıqlı bağlılıq və təsir, kurikulumun davamlı təkmilləşdirilməsi, bilik, bacarıq və səriştə arasında qarşılıqlı bağlılıq, təhsildə sosial ədalət və hamı üçün bərabər imkanlar, gələcəyin vətəndaşının hazırlanmasında ali təhsilin əvəzolunmaz rolu və ali təhsildə qazanılan müsbət təcrübənin bölüşdürülməsi məsələlərinin önəmi vurğulanıb.

Tədbir çərçivəsində Ş.Bayramov müvafiq universitetlərin rektorları ilə çoxsaylı ikitərəfli görüşlər keçirib. Görüşlər zamanı rektor MDU-nun strateji hədəfləri, yeni dövrün universitetinə çevrilmə yolunda atılan addımlar barədə ətraflı məlumat verib, IAU çərçivəsində universitetlərarası əməkdaşlıqdan gözləntiləri ni diqqətə çatdırıb.

Bundan əlavə, 16-cı Baş Konfrans çərçivəsində IAU-nun əvvəlki dövr üçün hesabatı, 2022-2030-cu illər üzrə Strategiyası və 2022-2026-cı illər üzrə Büdcəsi müzakirə və təsdiq edilib. Həmçinin IAU-nun "Qlobal ümumi rifah naminə ali təhsil müəssisələrinin rəqəmsal dünyada transformasiyası" adlı Qətnaməsi qəbul olunub.

Konfrans 2022-2026-cı illər üçün IAU Prezidentinin və İdarə Heyəti üzvlərinin seçilməsilə öz işinə yekun vurub. MDU-nun rektoru Ş.Bayramov IAU İdarə Heyətinə üzv seçilib.

Məlumat üçün bildirək ki, IAU İdarə Heyəti təşkilatın əsas idarəedici qurumudur və üzvləri dörd il müddətinə seçilir. Hazırda 17 üzvü var. İdarə Heyəti hər il toplanır, Baş Konfransın qərarlarının icrasını təmin və İAU Katibliyinin işinə rəhbərlik edir. Onun işlərinin bir hissəsi konkret komitələr və işçi qruplar vasitəsilə həyata keçirilir.

Qeyd edək ki, MDU cari ildən IAU-nun üzvüdür. IAU 1950-ci ildə UNESCO-nun himayəsi altında yaradılmış qlobal miqyaslı üzvlük əsaslı təşkilatdır. Ali təhsil sahəsində dünyanın ən böyük təşkilatı hesab edilən IAU dünyanın 130-dan çox ölkəsinin 600-dən artıq universitetini birləşdirir. IAU dünya ali təhsil ictimaiyyətinin nümayəndələrini, ekspertləri və universitet liderlərini ali təhsil sahəsində qlobal gündəliyə aid əsas məsələlərə həsr olunan beynəlxalq konfranslar və görüşlərdə, tematik ixtisaslaşdırılmış seminarlar və vebinarlarda bir araya gətirən beynəlxalq şəbəkələşmə və əməkdaşlıq platforması kimi çıxış edir.

# Rumıniyanın Təbiət Elmləri Universitetinin əməkdaşları ADAU-da olub

Rumıniyanın Timişoara şəhərində yerləşən I Kral Mihai adına Təbiət Elmləri Universitetinin nümayəndələri professor Ökrös Adalbert və professor Florin-Vasile Prunar Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) olublar.

Qonaqlarla görüşən universitetin rektor əvəzi Zəfər Qurbanov ali təhsil müəssisəsinin beynəlxalq əlaqələri barədə ətraflı məlumat verib. Bildirib ki, ADAU ilə Rumıniyanın Təbiət Elmləri Universiteti arasındakı sıx əməkdaşlıq əlaqələri daha da inkişaf etməkdədir.

Çıxış edən Ökrös Adalbert və Florin-Vasile Prunar təmsil etdikləri universitetin fəaliyyətindən danışıblar. Bildirilib ki, Aqrar Universitetində yaradılan laboratoriyalar, müasir avadanlıqlar və təcrübə imkanları kənd təsərrüfatı mütəxəssislərinin hazırlanması üçün münbit şərait yaradır.

Sonra birgə tədqiqat işlərinin aparılması, müəllim-tələbə mübadiləsi, beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsi və digər məsələlər müzakirə olunub.

# ADPU-nun şərəfnamə kitabı

Qarşımda 523 səhifə həcmi olan sanballı bir kitab var. Bu pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi Fərrux Rüstəmovun *"Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorları" (Bakı, 2021)* adlı fundamental tədqiqat əsəridir. Biz bu mötəbər kitabı tam cəsarətlə bir əsrlik ömrü olan ADPU-nun Şərəfnaməsi, şan-şöhrət kitabı, müqəddəs tədris və elm məbədinin elitar ziyalı və intellekt sahibləri barədə salnamə hesab edə bilərik. Bu, ADPU-ya sözlə yaradılan möhtəşəm, əvəzolunmaz abidədir. Təhsil ocağının rektoru, professor Cəfər Cəfərovun doğru olaraq ön sözdə qeyd etdiyi kimi, nüfuzlu bir elm və təhsil məbədinin "bir əsrlik tarixini onu yaradan, inkişaf etdirən və sabaha aparan alimlərin simasında təqdim edən bu kitab taleyini bu müqəddəs təhsil ocağı ilə bağlayan işıqlı zəka sahiblərinə ucaldılan mənəvi bir abidədir". Bu həm də, həqiqətən, ciddi axtarışlar hesabına başa gələn bir tədqiqat əsəridir. Bəlli olduğu kimi, 2021-ci ildə ADPU-nun yaranmasının 100 illiyi tamam oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 17 aprel 2021-ci il tarixli sərəncamı ilə universitetin yubileyi həmin ilin 17 dekabrında təntənəli şəkildə qeyd edildi. Ali məktəb üçün görülən gərəkli işlər sırasında onun barəsində yazılan kitablar xüsusi yer tutur. Bu kitablardan səkkizinin müəllifi F.Rüstəmovdur. Həmin kitablar bunlardır: 1)Ali Pedaqoji İnstitutun salnaməsi (2020); 2)Azərbaycan Ali Pedaqoji İnstitutu. Beş yıllıq (2020); 3)Azərbaycan Dövlət Pedaqoji Universitetinin inkişafının ikinci mərhələsi (1930-1946) (2021); 4) Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarixi. I cild. (2021); 5) Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarixi. II cild. (2021); 6) Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorları (2021); 7) Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları (2021); 8)Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin tarixi (2021).




### Mətnşünas alim

Adını sadaladığımız bu kitablardan 1-cisi ("Azərbaycan Ali Pedaqoji İnstitutu salnaməsi") 1924-cü ildə ali məktəbin ilk buraxılışı, 2-cisi isə ("Azərbaycan Ali Pedaqoji İnstitutu. Beş yıllıq") 1926-cı ildə onun yaranmasının beş illiyi münasibəti ilə ərəb əlifbası ilə nəşr edilmişdir. Fərrux müəllim bir mətnşünas alim kimi həmin kitabları ərəb əlifbasından latın qrafikalı Azərbaycan əlifbasına çevirərək geniş şəkildə yazdığı "Ön söz"lə birlikdə yenidən çap etdirib pedaqoji ictimaiyyətə təqdim etmişdir. Adıçəkilən digər kitablar isə ADPU ilə bağlı sırf tədqiqat əsərləri kimi meydana çıxmışdır. Onu da əlavə edək ki, haqqında danışdığımız təhsil ocağının 100 illik yubileyi ərəfəsində onun barəsində gərəkli tədqiqat əsrlərinin, kitabların yaradılması ayrıca bir layihə kimi nəzərdə tutulmuşdur.

### Uğurlu layihə

Layihənin müəllifi ADPU-nun rektoru, tarix elmləri doktoru, professor Cəfər Cəfərov olmuşdur. Layihə kifayət qədər uğurla həyata keçirilmiş, ali tədris və elm müəssisəsinin tarixinin əbədiləşdirilməsi yolunda faydalı işlər görülmüş, diqqətəlayiq tədbirlər həyata keçirilmişdir. Və bu faydalı işdə professor F.Rüstəmovun böyük əməyi olmuşdur. Bu sahədə o, gərgin əmək sərf etmiş, əzabkeş alim və vətəndaş hünərvərliyi göstərmişdir. Fərrux müəllimin ərsəyə gələn kitablarının əksəriyyətinin elmi redaktoru olmaq cəfakeşliyinin şərəf yükünü ADPU-nun elm və innovasiyalar üzrə prorektoru, fizika-riyaziyyat elmləri doktoru, professor Asəf Zamanov daşımışdır.

Fərrux müəllimin adını çəkdiyimiz kitablarının hər biri bizim gözlərimiz qarşısında ərsəyə gəlmişdir. Biz onun bu kitabların meydana gəlməsində çəkdiyi əziyyətin, həvəsin, məsuliyyətin, alim və vətəndaş yanğısının şahidi olmuşuq. Hər faktın, hər fikrin, hər cümlənin üzərində necə məsuliyyətlə, həssaslıqla, qayğıkeşliklə iş gördüyünü, necə əsdiyini əyani şəkildə müşahidə etmişik. Bu kitablar həm də ömrünün 40 ilə qədərini ADPU ilə bağlayan, ona müqəddəs bir məbədgah kimi baxan alim vətəndaşın təəssübkeşlik və ziyalılıq borcunun məhsullarıdır, qədirşünaslıq missiyasıdır. Həmin dəyərli məhsullar alimin fəaliyyət və tədqiqat sferasında ayrıca bir xətt, ayrıca bir mərhələdir.

Tam mübaliğəsiz deyə bilərik ki, Fərrux müəllim bu kitabları ilə ADPU-nun bir əsrlik tarixini sözlə əbədiləşdirmiş, onun şərəf yolunun mənzərəsini indiki və gələcək nəsillərə ərməğan etmişdir. Bu kitablar kompleks şəklində ADPU-nun həmişəyaşar salnamələridir. Hər kəs 1921-ci ildə cəmi 6 tələbə və 8 müəllimlə fəaliyyətə başlayan bu ali təhsil məbədinin xalqımıza nə verdiyini, onun elminin, təhsilinin, maarifinin, mədəniyyətinin çiçəklənməsi, tərəqqisi naminə nə iş gördüyünü, onu yaradanların və yaşadanların hansı cəfalara məruz qaldığını bu kitablardan öyrənə bilər. Kitabların ərsəyə gəlməsi üçün müəllif yüzlərlə mənbəni araşdırmalı, müxtəlif arxivlərdə yüzlərlə sənədin tozunu udmalı, çoxlu sayda insanlarla əlaqə saxlamalı, fakt toplamalı, bu faktları araşdırmalı və ümumiləşdirməli olmuşdur. Əslində bir neçə nəfərin bir neçə ilə görə biləcəyi işi professor F.Rüstəmov təkbaşına yerinə yetirmişdir.

### Mənəvi abidə

İndi isə gələk "Azərbaycan Dövlət Pedaqoji Universitetinin professorları" kitabının məzmun və dəyərinə. Bəri başdan deyək ki, əsər kifayət qədər nizamlı, səliqə-səhmanlıdır, sturuktur baxımından ən münasib qaydada tərtib olunmuşdur. Kitab ADPU-nun rektoru, professor C.Cəfərovun "ADPU-nun elmi-pedaqoji elitası" adlı əhatəli və dəyərli ön sözü ilə başlayır. Burada Cəfər müəllim xalqımızın təhsil tarixinin qısaca xronikasını verdikdən sonra Pedaqoji Universitetin yaranma zərurətinə toxunur, sonra isə ali məktəbin 100 ildə qazandığı nailiyyətlərin mənzərəsini ümumiləşdirir. Nəhayət, Fərrux müəllimin bu fundamental əsərinin ADPU-ya həsr olunmuş bir abidə kimi dəyərini, mahiyyətini, faydasını şərh edir. Cəfər müəllim çox doğru olaraq yazır: "Kitabda sələflərimizin və müasirlərimizin pedaqoji və elmi-pedaqoji kadr hazırlığındakı xidmətləri, fakültə, kafedra, laboratoriya, ən əsası isə elmi məktəb yaratmaları, milli dildə dərslik və dərs vəsaitləri hazırlamaları, elmin müxtəlif sahələrində fundamental araşdırmalar aparmaları, terminoloji lüğətlər tərtib etmələri minnətdarlıq hissi ilə yad edilir. Məhz onların fədakarlıqları nəticəsində ali pedaqoji təhsil ocağı respublikada elmin ayrı-ayrı sahələrinin (riyaziyyat, fizika, kimya, biologiya, tarix, dil-ədəbiyyat) inkişafına güclü təsir göstərməklə yanaşı pedaqogika, psixologiya və fənlərin tədrisi metodikası il bağlı elmi mərkəzə çevrilmişdir. Tədrisin milli dildə aparılması nəticəsində formalaşmaqda olan milli intellektual elita Pedaqoji İnstituta toplanmışdır".

C.Cəfərov onu da çox gözəl vurğulayır ki, Pedaqoji Universitetin tarixi əslində bu universitetlə bağlı olan insanların tarixidir. Doğrudan da, bu insanların əməyi, işləri, fəaliyyəti yoxdursa, universitetin tarixi də yoxdur. Fərrux müəllim də mövcud kitabına məhz bu məntiqlə yanaşmış, bu prizmadan baxmışdır. Yəni fəaliyyətinin müəyyən bir qismi və ya əsas hissəsi, ömrünün müəyyən zaman kəsimi (az və ya çox) ADPU ilə bağlı olan elitar ziyalıları, onların həyat və fəaliyyətlərini kitabda işıqlandırmışdır. Bu zaman ali məktəbin bir əsrlik tarixindəki rektorların və professorların fəaliyyəti əsas götürülmüşdür. Çünki bu yüz ildə tədris ocağında minlərlə şəxs işləmişdir. Onların hamısının fəaliyyətini bir kitabda işıqlandırmaq mümkün deyil. Bu, praktiki cəhətdən də mümkünsüzdür. Ona görə də müəllif ali məktəbin seçmə elitasını, yəni rektorları və professorları mövzu obyekti olaraq hədəf götürmüşdür. İkincisi isə, ədalət naminə deyə bilərik ki, professor elmi adı qazanmayan şəxslərin də universitetin yüksəlişində müəyyən xidmətləri olsa da, tərəqqi amilinin əsas "yük"ü, əsasən, professorların üzərinə düşmüşdür. Ümumiyyətlə, kitabda 31 rektor (bunlar 1921-2021-ci illərdə ADPU-ya rəhbərlik edən rektorların hamısıdır), 400-ə qədər elmlər doktoru elmi dərəcəsi və ya professor elmi adı almış şəxslər barədə oçerklər verilir. Lakin F.Rüstəmovun özünün də dediyi kimi, bunlar universitetdə fəaliyyət göstərən və ya onunla bu və ya digər dərəcədə bağlı olan professorların hamısı deyil. Belə ki, bəzi elmlər doktorları və professorlar barədə məlumat toplamaq mümkünsüz olduğundan, yəni material olmadığından onların barəsində yazmaq da mümkün olmamışdır. Ancaq 400 nəfər də az deyil və bunların fəaliyyəti tədris ocağının əsas elmi və elmi-pedaqoji simasını, mənzərəsini əks etdirən göstərici kimi böyük dəyərə malikdir. Bunların hamısı barədə faktları tapıb araya-ərsəyə gətirmək, oçerkləşdirmək isə bir başqa cəfakeşlikdən (tədqiqatçı cəfakeşliyindən) xəbər verir.

### ADPU-nun intellekt və əməl fədailəri

Bəs ADPU-nun elmi-pedaqoji flaqmanı, intellekt və əməl fədailəri olan bu alimlər, onu yaradanlar, yüksəldənlər və yaşadanlar nə iş gördülər? Universitetə, xalqımıza, vətənimizə nə fayda verdilər? Millət naminə hansı əzablara dözdülər, hansı məşəqqətlərə qatlaşdılar? Kitabda bu suallara da dürüst cavab tapa bilərik. Müəllif kitaba yazdığı son sözdə bu fədailərin işgüzarlığını, milli təəssübkeşliyini, fədakarlığını böyük bir heyranlıqla, həm də çox yığcam, sərrast və dəqiq şəkildə belə ifadə edir: "Onlar ilk milli təhsil ocağının yaradılması uğrunda, sözün həqiqi mənasında böyük mücadilə apararaq bütün çətinliklərə və əziyyətlərə baxmayaraq möhtəşəm bir təhsil məbədi yaradıb, onu dövrün buz kimi soyuq ictimai-siyasi hadisələrindən, totalitar rejimin təzyiqlərindən qoruyub. Repressiya olunaraq Sibirin şaxtalı-qarlı çöllərində donsalar da, 15-20 dəqiqəlik dindirmələrdən sonra güllələnsələr də, bu müqəddəs ocağın alovunu sönməyə qoymayıblar. Estafeti ildən-ilə layiqli və ləyaqətli nəsillərə ötürüblər".

Kitabın ilk və mühüm bir bölməsini ADPU-nun rektorları barədə verilən oçerklər təşkil edir. Doğrudur, professor F.Rüstəmov ADPU-nun rektorları ilə bağlı ayrıca, yetərincə dəyərli, fundamental bir kitab (əslində tədqiqat əsəri) da yazıb nəşr etdirmişdir. Biz onun adını yuxarıda göstərdik. Lakin bu maarif məbədinin professorları ilə əlaqədar kitabda da deyilən məsələyə, yəni rektorlar barədə məlumatların kitaba daxil edilməsinə zəruri ehtiyac var idi. Çünki rektorlar institutun lokomotivləri, kompasları, yönvericiləridir. Ali məktəbin fəaliyyət istiqamətini daha çox onlar müəyyənləşdirir. Ona görə də haqqında danışdığımız əsərdə onlar barədə verilən məlumatlar kitabın məzmun və dəyərinin tamlığına, ADPU-nun elmi və elmi-pedaqoji sahədə, təhsil və maarif müstəvisində gördüyü işlərin tam mənzərəsini anlamağa imkan verir. Onu da əlavə edək ki, "ADPU-nun rektorları" kitabında rektorlar barədə verilən oçerklər, avtobioqrafik bilgilər müfəssəl və əhatəli, "Professorlar" kitabında isə yığcam və konkretdir. Hər iki kitabda 100 ildə ADPU-ya rəhbərlik etmiş 31 rektorun (direktorun) hamısı barədə tarixi-xronoloji prinsip əsasında bilgi verilir. Fərrux müəllimin ali təhsil ocağımızla əlaqəli bütün kitablarında olduğu kimi, bu kitabın da hər bir sətrindən və səhifəsindən bir alim yanğısı, heyranlıq və təəssübkeşlik duyğusu boylanır.

Professorlar barədə verilən oçerklər doğru olaraq fakültələr üzrə müəyyənləşdirilir. Bu, kitabın sturukturunun müəyyənləşdirilməsində ən münasib və əlverişli prinsipdir. Lakin bundan əvvəl "ADPU-nun Fəxri doktorları və professorları" bölməsi gəlir. Burada universitetin 5 nəfər fəxri doktoru və professoru barədə məlumat verilir.

Kitabın tərtibində fakültələrin ardıcıllığı, həmçinin hər fakültə üzrə barəsində məlumat yer alan professorların sayı aşağıdakı kimidir: 1.Filologiya fakültəsi-96 nəfər; 2.Tarix və coğrafiya fakültəsi-104 nəfər; 3.Riyaziyyat fakültəsi-42 nəfər; 4.Kimya və biologiya fakültəsi-52 nəfər; 5.Məktəbəqədər təhsil fakültəsi-12 nəfər; 6.Fizika fakültəsi-33 nəfər; 7.İncəsənət və fiziki tərbiyə fakültəsi-12 nəfər; 8.İbtidai təhsil fakültəsi-8 nəfər.

Müəllif ADPU-nun Şəki filialını da buraya əlavə etmişdir. Həmin filialda çalışan professorların sayı 3 nəfərdir.

Onu da əlavə edək ki, ömrünün və fəaliyyətinin müəyyən qismi ADPU ilə bağlı olan bu professorların bir çoxu akademik, akademiyanın müxbir üzvü, Əməkdar elm xadimi, Əməkdar müəllim və s. fəxri ünvan və yüksək titulların sahibi olmuşlar.

Fərrux müəllim kitaba "Son söz əvəzi" sərlövhəli yığcam və dəyərli bir son söz də yazmışdır. Kitabın sonunda yer alan "Ad göstəricisi" və "İstifadə olunmuş ədəbiyyat" bölmələri də əsərə bir tamlıq, bütövlük aşılayır. Həm də ona çəkilən əziyyətin miqyasını və çəkisini göstərir. Ədəbiyyat siyahısından bəlli olur ki, müəllif öz kitabını və həm də ADPU-nun şərəf kitabını arxiv materialları, konkret faktlar, əsaslı arqumentlər əsasında ərsəyə gətirmişdir. İstifadə edilmiş ədəbiyyat siyahısının kitaba əlavə edilməsi başqa bir məsələ üçün də xüsusi əhəmiyyət kəsb edir. Bu, həm də ADPU və onun müxtəlif fakültələri, ali məktəblə bağlı olan bəzi şəxsiyyətlər barədə gələcəkdə araşdırma aparmaq istəyən tədqiqatçıya yol, yön göstərir. Onu bir sıra lazımi qaynaqlarla tanış edir. Verilən ədəbiyyat siyahısı həm də professor F.Rüstəmovun axtarış sferasının genişliyinin, çəkdiyi cəfanın miqyasının, ölçüsünün bir göstəricisidir.

### Sözlə yaradılan möhtəşəm abidə

Tam əminliklə deyə bilərik ki, nə qədər ki, Azərbaycan xalqı var, onun təhsilinə və təhsil tarixinə maraq var, ölkəmizin böyük elmi və elmi-pedaqoji kadrlarının həyatını, fəaliyyətini öyrənməyə ehtiyac var, nə qədər ki, gələcək nəsillərimiz öz keçmişini öyrənməyə həvəsli olacaqlar, təşnəlik hiss edəcəklər, bu cür kitablara ehtiyac duyulacaqdır. Və gələcək nəsillər bu cür kitabların dəyərini indikilərdən daha yaxşı dərk edəcək və qiymətləndirəcəklər.

**Yaqub BABAYEV,**
*ADPU-nun professoru, filologiya elmləri doktoru, Əməkdar müəllim*

Söz xiridarı olmaq, onun mənalar aləmində gəzişmələr etmək, sehirli obrazlar yarada bilmək bir istedaddır. Şairlər belə istedadlı insanlardan biri kimi xüsusilə seçilirlər. Onlar sözlərdən məna çələngi toxuyur, şeiriyyət aləmini bəzəyirlər. Allahın bir lütfü kimi gözəlliyə gözəllik qatırlar. Xeyirxahlıq etməkdən və insanlara fayda verməkdən ləzzət alırlar. İstedadlı şair, gözəl insan, Əməkdar müəllim Əyyub Şirlanlı belələrindəndir.



# Lirik duyğular şairi Əyyub Şirlanlı



**Ənvər ABBASOV,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

### Tanışlıq

Mən onun bir şair olaraq imzasını çoxdan tanıyırdım. Vətənpərvərlik duyğuları ilə yazılmış səmimi və qəlboxşayan şeirlərini davamlı olaraq izləyirdim. Lakin bir tədbir bizi daha da yaxından tanış etdi. Şuşa 1 nömrəli məktəbdə yeni fənn kurikulumları ilə bağlı tədbir keçirilirdi. Orada ustad dərsləri dinləməli olduq. XI sinifdə ədəbiyyatdan Əyyub müəllimin ustad dərsini dinlədik. Dərs müasir tələblərə uyğun olaraq peşəkarlıqla təşkil olundu. Şagirdlərin yüksək fəallığı şəraitində quruldu. Uşaqlar sinifdaxili diskussiyaya qoşularaq maraqlı iştirakçılar kimi özlərini təqdim etdilər. Ən başlıcası Əyyub müəllim özünün düşündürücü sualları ilə şagirdləri istiqamətləndirməklə yanaşı, lirik və epik haşiyələrə çıxır, son dərəcə təsirli əlavələr edərək uşaqları istiqamətləndirir, onların fikir və mülahizələrini qüvvətləndirməklə motivasiya edirdi. Həm də gətirdiyi poetik nümunələrin fonunda şagirdlərdə bədii dilə praktik olaraq münasibət formalaşdırmağa çalışırdı. Mən o zaman söz sərrafı olan şair xislətli insanların bir ədəbiyyat müəllimi kimi təsir gücünün dərsdə şahidi oldum və ona heyran qaldım.

Əyyub Şirlanlı (Əbdüləzimov Əyyub Şəfahət oğlu) 1947-ci ildə Azərbaycanın dilbər guşəsi olan Şuşanın axarlı-baxarlı kəndlərindən birində - Şirlanda anadan olub. 1966-cı ildə Üzeyir Hacıbəyli adına Şuşa şəhər 1 nömrəli məktəbi bitirib. Müəllimliyə olan həvəsi onu pedaqoji təhsil almağa sövq edib. Əvvəl, Şuşa Pedaqoji Məktəbini (1970), sonra Xankəndi Pedaqoji İnstitutunu (1977) başa vurub. O, müəllim, direktor müavini, Şuşa rayonu üzrə mədəniyyət evinin, təhsil şöbəsinin müdiri vəzifələrində çalışıb. İşlədiyi dövrdə “Metodist müəllim” (1970), “Ali kateqoriyalı müəllim” (1994), “İlin ən yaxşı məktəb inspektoru” (2000), “Ustad müəllim” (2013), “Əməkdar müəllim” (2014) adlarına, “Tərəqqi” (2012) medalına layiq görülüb. Həmçinin işlədiyi illərdə vəzifələri dəyişsə də, yalnız bir keyfiyyəti-şairliyi dəyişməyib, həmişə onunla birgə addımlayıb, şəxsiyyətinə şərəf və şərafət, yeni uğurlar gətirib. Cəmiyyətdəki mövqeyini lirik duyğular şairi kimi möhkəmləndirib. Çoxlu sayda əsərlərin, o cümlədən şeirlərin, poemaların müəllifi kimi tanınıb. Həmçinin əsərləri tərcümə olunaraq Türkiyə, İspaniya, Ukrayna, Litva, İran, Rusiya və Gürcüstanda nəşr edilib. Müxtəlif zamanlarda radio və televiziya verilişlərində çıxışlar edib, diplom və fəxri fərmanlarla, digər mükafatlarla təltif olunub.

### Onun poetik dünyasının zirvəsi

Əyyub Şirlanlı ana təbiətin qoynunda doğulub boya-başa çatdığı üçün onun bütün varlığını özündə ehtiva edir. Bir şair olaraq həmişə təbiətin gözəlliklərindən həzz almaqla onu tərənnüm etməkdən doymur. Özü də məmnuniyyətlə etiraf edir ki, “...ana təbiət mənim poetik dünyamın zirvəsidir. Mən orada daha rahat nəfəs alıram”. Onun haqqında fikir söyləyən mütəxəssislər də bu məsələni xüsusi olaraq vurğulayırlar: “Onun bütün yazılarında, şeir və poemalarında Qarabağın gül-çiçəyinin ətri, Ağabəyimağa və Xan qızı Natəvanın ürək sıxıntıları, Qasım bəy Zakirin üsyankarlığı duyulmaqdadır”.

Əslində o, təbiət, həyat şairidir. Qəlbində dünyanın həyati gözəlliklərinə olan böyük bir məhəbbət gəzdirir. “Dağlarım”, “Mən dağların oğluyam” kimi şeirlərində fəxarət simvolu olan dağlara müraciət edir. Klassik şair babalarımızın ənənələrinə sadiq qalaraq vətən timsalında olan dağların obrazlarını yaradır. Onlara böyük bir sevgi ehtiramını ifadə edir.

*Çıxmışam vətənin seyrəngahına*
*Düzüb yollarına səməni dağlar!*
*Ayaq saxlamışam-ötəri keçsəm,*
*Yığar süfrəsindən çəməni dağlar.*

Həm də o dağlara qürur mənbəyi kimi yanaşır, özünü onun övladı hesab edir. Şirlanda doğulduğundan, Qarabağın gözəllikləri içərisində dünyaya gəldiyindən qürurlanır.

*Dağların qucağında - Şirlan adlı obada,*
*Qarabağ mahalında dünyaya göz açmışam.*
*Taladakı ceyranın, meşədəki cüyürün,*
*Zirvədəki qartalın arxasınca qaçmışam,*
*- Mən dağların oğluyam!*

Şairin ilham mənbəyi də elə ana təbiətdir. O, varlığın üzük qaşı, gözəllər gözəli olan ana təbiətin ahəngində süslənir, onun möhtəşəm gözəlliyinin pozulmasına razı olmur. Hətta ovçunun belə güllə atmasını istəmir. Ona görə də ixtiyarı olaraq

*Ovçu, güllə atma dağ təkəsinə,*
*Ana təbiətdən güc alıram mən.*

- deyir.

Dağlar vətənin möhtəşəm simvoludur. Əyilməyən, qüdrətdən qalalı olan bu dağların əsrlərin yaşıdı kimi dayanması nə qədər fərəh gətiricidirsə, onların sevənlərdən ayrı düşməsi, ayrılıq həsrəti yaşaması o qədər nisgillidir. Bu nisgili hiss edən şair böyük narahatçılıq hissi ilə belə bir poetik ümumiləşdirmə aparır:

*Bilmirəm hayandan salım ki, yolu*
*Görməyim kədərin uca dağların.*

### “Qarabağ-yurdumun gülüstanı”

Doğma yurdumuz olan Azərbaycan başdan-başa gözəlliklər diyarıdır. Onun hər qarışında sehirli, cazibədar bir yaraşıq var. Qarabağ bu gözəlliklərin üzük qaşıdır. Sənətkarlarımız Qarabağı vəsf eləməkdən doymurlar. Əyyub Şirlanlı da Qarabağı tərənnüm eləməkdən zövq alır. Həm də bir qarabağlı kimi onun gözəlliklərinə vurğunluğunu heyranlıqla vəsf edir. Əslində Qarabağ mövzusu onun yaradıcılığının leytmotivini təşkil edir. Həm də Qarabağın onilliklər boyu həbsi, düşmən tapdağında qalması ona dərd olur. Həsrəti ürəyində qübar bağlayır.

*Hərdən mənə elə gəlir dağların*
*Buz suların ovuclayıb içirəm.*
*Yuxularda durnalara qoşulub*
*Ana yurdum Qarabağa köçürəm.*

- deyə düşündüklərini qələmə alır.

Əyyub Şirlanlının poetik düşüncələrinin mərkəzində vətən, yurd həsrəti, Qarabağ, Şuşa dərdi dayanır. “Qarabağ”, “Topxanadan haray çəkir Xarı bülbül”, “Şuşaya gəlməlisən”, “Şuşa adlı şəhər niyə dardadır”, “Şuşanın”, “Şuşa adlı şəhər var”, “Nədən doysam da, yurddan doymaram”, “Gedim Qarabağın ellərin görüm”, “Şuşadan cibimdə bir kibrit gəlib”, “Şuşanın gözləri yollarda qalıb” və s. şeir və lirik poemalarında bu dərdin poetik obrazını yaradır. Onu təkcə özünün deyil, xalqımızın, bütövlükdə türk dünyasının dərdi kimi ümumiləşdirir.

Qarabağdan danışan şair onun qənirsiz gözəlliyindən vəcdə gələrək “Qarabağ yurdumun ləl külçəsidir. Tarix yaddaşının fəlsəfəsidir, Qarabağ yurdumun gülüstanı, ...cənnətin bir dastanıdır” - deyir.

Şirlanda dünyaya göz açan şair özünün doğma kəndindən dünyanın gözəlliklərinə boylanır. Şuşanı dünyanın yüksəklikləri ilə müqayisə edərək onu ən yuxarıda ulduzların cərgəsində görür:

*Everest zirvələr şahı olsa da,*
*Şuşa ulduzların zirvəsindədir.*

Şair Qarabağın işğalı dövründə hər gün bu nisgillə yaşayır, onu gecələr yuxularında görür.

*Qarabağ zirvəsində,*
*Şəlalənin səsində,*
*Düşmənin qəfəsində*
*Şuşa adlı şəhər var.*

Amma şair həm də nikbin bir tərzdə əminliklə deyir ki, “Şuşa Qarabağın himninə çevriləcək”. Sanki o Şuşanın düşməndən azad olunaraq dünyanın nəzər nöqtəsinə çevriləcəyini, möhtəşəm bir mədəniyyət mərkəzi olacağını əvvəlcədən görür, hiss edir.

### Söz aşiqi

Ə.Şirlanlı həm də söz aşiqidir. Onun qədir-qiymətini bilən, məna xəzinəsinə varid olaraq ondan qədərincə və yetərincə istifadə etməyi bacaran bir sənətkardır. O, sözü öz duyğularında bəsləyir, onun bənzərsizliyini görür, kəşf edir. Söz hər kəsin olsa da, hər kəs sözü qiymətləndirə bilməz. Ona görə də belə qənaətə gəlir ki,

*Sözə qiymət vermək üçün*
*Gərək sözü dərk edəsən.*

Sözün ən etibarlı sirdaşı şairlərdir. Əyyub Şirlanlı öz poeziyasında şairə böyük dəyər verir. Onun düşüncəsində şairsiz dünya heçdir. Şairlər cəmiyyətin yaraşığıdır, həqiqətə işıq saçan mayakdır. Həm də gül-çiçəkdir, yanan çıraqdır, ləl-cəvahirdir. Qüdsiyyəti olan varlıqlardır. Ona görə də tərəddüd etmədən onun daxilindən belə bir poetik nida səslənir: şairləri hakim seçin ki, sözə qiymət versinlər. Sözdən saray qursunlar.

Əyyub Şirlanlının anlamında şairlər adi insanlar deyillər. Onlar sonsuz səmadan yerə bal tək süzülüblər, nadir incilərə çevriliblər.

### Şairin həyat fəlsəfəsi

Əyyub Şirlanlı “qoca dünyanın yetirməsiyəm” - deyə şeirlərində əbədi dünyanın gözəllikləri ilə yanaşı, ziddiyyətli məqamların olmasına da diqqət yetirir. Dünyanın daimi olmasını, insanların isə bir gün köçəcəyi barədə düşünür. Və belə qənaətə gəlir ki,

*Elə düşünmə ki, hər şey sənindir,*
*Fələyin insanı yıxan günü var.*
*Çalış ki, fələkdən çox şey istəmə,*
*Yarımçıq qalacaq bil ki, arzular.*

İnsan arzuları ilə qanadlanır, fərəhlənir. Həm də bu arzuların nəhayəti olmur. Arzudan arzu doğur. Ona görə də arzular nəhayətsiz göylər kimi dərinliyə varır, lakin bitmir, tükənmir.

Şair həm də “Yolçu babayam, dünya görmüşəm” - deyə təcrübəli bir insan kimi özünü haqqın, ədalətin carçısı adlandırır. Həmçinin insan əxlaqına yaraşmayan keyfiyyətləri pisləyir, onlardan uzaq durmağı hər kəsə tövsiyə edir. Həm də bu eybəcərliklərin poetik ifadəsini tapır:

*Yaltaqda ləyaqət axtarmayın siz,*
*Yaltaq ilan təki yolla sürünür.*

O, həm də gənclərə üzünü tutaraq belə sözləri onlara aqilcəsinə bir qoca nəsihəti kimi deyir.

*Kasıba, əlilə gülmə, ilişmə,*
*Yersiz cavab verib, sual soruşma.*
*Gücsüz adamlarla heç vaxt vuruşma,*
*Kərkinin tərsinə yonan vaxtı var.*

Bütün bunlar şairin şeir bağından yenicə dərilmiş, təzə tər güllər kimi ətir saçır. İnsanların zövqünü oxşayır, əxlaqını saflaşdırır.

2022-ci il Əyyub Şirlanlı üçün adi illərdən biri deyil. Onun Əməkdar müəllim, istedadlı şair kimi ömrünün 75 illik bir hesabat dövrüdür. Biz bu münasibətlə ona ən xoş və səmimi duyğularımızı ifadə edirik. Ən başlıcası, cansağlığı, xoşbəxtlik, daha böyük yaradıcılıq uğurları arzulayırıq.

# Fərhad Bədəlbəylidən UNEC kollektivi üçün xüsusi konsert proqramı

Dahi Azərbaycan bəstəkarı Fikrət Əmirovun 100 illik yubileyi münasibətilə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, görkəmli pianoçu, Xalq artisti professor Fərhad Bədəlbəyli Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) kollektivi üçün xüsusi konsert proqramı ilə çıxış edib.

M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında təşkil olunan konsertdə xalq artisti, professor Zəhra Quliyeva bəstəkar Fikrət Əmirovun həyat və yaradıcılığından söhbət açıb. Azərbaycan bəstəkarlıq məktəbinin böyük nümayəndəsi, simfonik muğam janrının banisi Fikrət Əmirovun ecazkar xalq musiqisi və muğam ənənələrini müasir musiqi texnikası ilə uğurlu şəkildə sintez edərək, neçə-neçə dəyərli opera, balet, simfoniya, mahnı, romans və kamera-instrumental əsəri meydana gətirdiyini diqqətə çatdırıb.





Konsertdə xalq artisti Fəxrəddin Kərimovun dirijorluğu, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti və əməkdar artist Səbinə Əsədovanın solistliyi ilə Fikrət Əmirovun “Azərbaycan” simfonik süitası, “Gülüstan Bayatı-Şiraz” muğamı ifa olunub.

Xalq artisti Fərhad Bədəlbəylinin solistliyi ilə Fikrət Əmirov- Elmira Nəzirovanın Fortepiano və orkestr üçün ərəb mövzuları əsasında ifa etdiyi möhtəşəm konsert proqramı UNEC kollektivi tərəfindən böyük alqışlarla qarşılanıb.

# “Məktəblilərin poeziya klubu” yaradılıb

Gəncə şəhər M.Hadi adına 10 nömrəli tam orta məktəbdə ilkin mərhələdə Gəncə şəhərini əhatə edən “Məktəblilərin poeziya klubu” yaradılıb. Elm və Təhsil Nazirliyi tərəfindən elan edilən “Təhsildə inkişaf və innovasiyalar üzrə VI qrant müsabiqəsi” çərçivəsində yaradılan klubda iştirakçıların yaradıcı məhsullarının çapı və digər dəstəkləyici tədbirlərin həyata keçirilməsi planlaşdırılır.

Layihənin təqdimatında Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin əməkdaşları, orta məktəblərin müəllimləri, ictimaiyyət nümayəndələri və müxtəlif təşkilatlardan qonaqlar iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan məktəbin direktoru Arzu Əliyeva layihə rəhbəri Günay Ələkbərzadənin nümunəvi müəllim kimi fəaliyyətindən danışaraq, onun sözügedən layihəni də uğurla həyata keçirəcəyinə inamını ifadə edib.

Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin Tədrisin Keyfiyyəti sektorunun müdiri Sevinc Quliyeva təhsildə inkişaf və innovasiyalar üzrə qrant müsabiqələrinin əhəmiyyətindən danışıb, innovativ ideyaların, tədrisin, gənc nəslin inkişafına xidmət edən layihələrin dəstəkləndiyini vurğulayıb.

Layihənin koordinatoru Nofəl Şirinov Gəncənin hər zaman Azərbaycan ədəbiyyatı, mədəniyyəti və siyasi tarixində mühüm bir mərkəz rolunu oynadığını qeyd edərək bu layihənin də Gəncədə, məhz M.Hadinin adını daşıyan bir məktəbdə icra olunmasının simvolik məna daşıdığına diqqət çəkib.

Layihə rəhbəri Günay Ələkbərzadə ümumtəhsil məktəblərində müxtəlif istiqamətdə kifayət qədər istedadlı şagirdlərin olduğunu vurğulayaraq bildirib ki, məqsəd bədii yaradıcılığı olan şagirdlərin inkişafına dəstək verməkdir: “Bu məqsədlə, 44 orta ümumtəhsil məktəbindən ilkin mərhələdə 20 şagird cəlb olunacaq. Bu şagirdlərə bədii yaradıcılığın sirləri öyrədiləcək. Bədii qiraət, yazılı təqdimatları, şifahi təqdimetmə bacarıqları formalaşdırılacaq. İstedadları daha da cilalanaraq yaradıcılıq bacarıqlarının inkişafına təkan veriləcək. Layihənin ilkin mərhələsinin yekununda prosesə cəlb edilən məktəblilərin yazdığı şeir və hekayələrdən ibarət “Nizami yurdunun qönçələri” adlı almanax nəşr ediləcək və eyniadlı bədii yaradıcılıq klubu yaradılacaq. Klubun fəaliyyəti layihə bitdikdən sonra da davam edəcək. Həmin şagirdlərlə yaradıcılıq mərkəzləri arasında əlaqələrin qorunub saxlanılması təmin ediləcək. İldə bir dəfədən az olmayaraq, həmin klubun bədii gecələri təşkil olunacaq. Bu da yeni ədəbi nəslin formalaşmasına təkan verəcək”.

# “Məktəbdə...” layihəsinin növbəti qonağı




“Məktəbdə...” layihəsinin növbəti görüşü noyabrın 4-də Bakı şəhəri 247 nömrəli tam orta məktəbdə keçiriləcək.

Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən reallaşdırılan layihənin budəfəki qonağı Milli Coğrafiya Cəmiyyətinin (National Geographic Society) Azərbaycan əsilli fransız fotoqrafı Reza Deqati olacaq.

Görüşdə Azərbaycan reallıqlarının dünya ictimaiyyətinə çatdırılmasında səmərəli fəaliyyət göstərən, 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan həqiqətlərini dünyaya yayan Reza Deqati Zəfər Günü ərəfəsində şagirdlərlə vətənpərvərlik, xalqa, torpağa bağlılıq hisslərinin aşılanmasında məktəbin rolu, yeniyetmələrdə təəssübkeşlik hisslərinin formalaşdırılması və digər maraq doğuran mövzular ətrafında söhbətlər aparacaq, məktəbliləri düşündürən suallara aydınlıq gətirəcək.

Layihənin informasiya dəstəyi “Kaspi” qəzeti və Kaspi.az saytıdır.

Görüşü, həmçinin Baku TV, Media Türk və AzEdu Təhsil Portalı da işıqlandıracaq.

# “İstedadlı tələbələrin təhsil qrantı” layihəsi ilə bağlı görüş

Bakı Dövlət Universitetində (BDU) Azərbaycan Gənclər Fondunun “İstedadlı tələbələrin təhsil qrantı” layihəsi ilə bağlı görüş keçirilib.

BDU-nun Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov gənclərə diqqət və qayğının dövlət siyasətinin əsas prioritetlərindən olduğunu bildirib və BDU-da həyata keçirilən sosial layihələrdən danışıb.

BDU-nun Tələbə Gənclər Təşkilatının sədri Ələkbər Həsənov universitet tələbələrinin Azərbaycan Gənclər Fondunun müxtəlif sosial layihələrində fəal iştirak etdiyini söyləyərək, “İstedadlı tələbələrin təhsil qrantı” layihəsinə də marağın yüksək olduğunu diqqətə çatdırıb.

Fondun Gənclərlə iş şöbəsinin mütəxəssisi Ülvi Adıgözəlov müsabiqə haqqında tələbələrə geniş məlumat verib. Bildirib ki, Azərbaycan Gənclər Fondu sosial həssas əhali kateqoriyasına aid olan istedadlı gənclərin təhsil xərclərinin qarşılanması üzrə növbəti müsabiqəni elan edib. Müsabiqənin əsas məqsədi təhsilin gənclər üçün daha da əlçatan edilməsi və insan kapitalının inkişafına dəstəyin göstərilməsidir.

Görüş zamanı tələbələrə məlumat verilib ki, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələrinə şamil ediləcək müsabiqədən əyani və qiyabi təhsilalma formaları üzrə bakalavr və magistr təhsili alanlar yararlana biləcəklər.

Sonda müsabiqə ilə bağlı tələbələrin sualları cavablandırılıb.

# Sevgi, anlayış, qayğı...

## Uşaqlara qarşı zorakılıqla birlikdə mübarizə aparaq

Uşaqların cəmiyyətdə inteqrasiyası, sosial həyatın müxtəlif sahələrinə uyğunlaşma dövrü mərhələlər formasında olur. Dünyaya gələn gündən uşaqlara lazımi imkanların yaradılması onların hərtərəfli inkişafına şərait yaradır. Xüsusilə uşaq haqlarının qorunması, hüquqlarının müdafiəsi bir çox qurumlar, beynəlxalq təşkilatlar və media orqanları tərəfindən müntəzəm olaraq diqqətdə saxlanılan mühüm məsələlərdəndir. Müasir dövrdə müxtəlif ölkələrdə milyonlarla uşaqların hüquqları ciddi şəkildə pozulur, təkzib olunur. Uşaqlar şiddətə, zorakılığa, cinsi və ya psixoloji istismara məruz qalır, eyni zamanda, aclıq kimi problemlərlə üz-üzə olurlar. Təhsil hüquqları əlindən alınan, yetkinlik yaşına çatmadan sənayedə uşaq əməyindən istifadə halları da baş verir, xüsusilə müharibələr nəticəsində hər il çoxlu sayda uşaqlar həlak olur. Bu məqsədlə bir çox qurumlar yaradılıb, beynəlxalq, eləcə də yerli təşkilatlar bu kimi hallara qarşı çoxlu sayda qanunlar qəbul edib, qətnamələr çıxarıb. Uşaqların hüquqlarını BMT-nin "Uşaq Hüquqları Haqqında" Konvensiyası təmin edir. Həmçinin, Uşaq Hüquqları Günü hər ilin noyabrın 20-də qeyd olunur və bütün dünyada onların hüquqlarını, müdafiəsini müəyyən edir.

Ölkəmizdə uşaqların şəxsiyyət kimi yetişməsi, onların hüquqlarının müdafiəsi, zəruri ehtiyaclarının dolğun şəkildə ödənilməsi dövlət siyasətinin əsas hədəflərindən birinə çevrilib. Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə uşaqlarla bağlı dövlət siyasətinin əsasını qoyması buna bariz nümunədir. Uşaqların haqlarının müdafiə olunması baxımından islahatlar keçirilib, beynəlxalq sazişlər imzalanıb, BMT-nin Uşaq Hüquqları Konvensiyasına qoşulub. Eyni zamanda, Azərbaycan Prezidenti cənab İlham Əliyev 2006-cı ildə Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında Fərman, "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb.

Uşaqların üzləşdiyi problemlərə, onlara qarşı zorakılığın bütün formaları ilə mübarizə aparılmasına dair bir sıra tədbirlər haqqında həmsöhbətimiz Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin Uşaq məsələləri şöbəsinin böyük məsləhətçisi Təranə Piriyeva danışdı və bəzi suallara aydınlıq gətirdi:

*- Cəmiyyətdə hansı formada uşaq problemləri ilə qarşılaşırsınız və bu problemləri yaradan səbəblər nələrdir?*

- Əsasən uşaqların təhsil hüquqlarının pozulması halları ilə rastlaşırıq ki, bunun da əsas səbəblərindən biri ailədaxili münaqişələr və boşanma hallarıdır. Bununla yanaşı uşaqların küçə həyatına məruz qalması və dilənçiliyə sövq edilməsi halları da baş verir. Bu tip uşaqların natamam ailələrdən olduğu, məişət zorakılığına məruz qaldığı və evdə uyğun şəraitinin olmaması səbəbindən küçə həyatı yaşadıqları müəyyən edilmişdir. Nadir hallarda regionlarda erkən nigaha cəhd halları aşkar edilir ki, Komitə tərəfindən aparılan araşdırmalar zamanı valideynlərin hüquqi məlumatlılıq səviyyəsinin olmadığı üçün belə hallara yol verdiyi müəyyən edilir. Bu səbəbdən də bəzi profilaktik tədbirlərin həyata keçirilməsinə başlanılır.

*- Uşaqlara qarşı zorakılığın bütün formaları ilə mübarizədə hansı istiqamətdə təbliğat işləri aparılır?*

- Qeyd etmək istəyirəm ki, uşaqların cəmiyyətdə üzləşə biləcəyi zorakılıq hallarından müdafiəsi, onların öz hüquqlarını bilməsi barəsində ətraflı məlumat verilməsi məqsədilə "Qızlar müzakirəyə qoşulur", "Oğlanlar müzakirəyə qoşulur" adlı maarifləndirici silsilə tədbirlər Komitə tərəfindən mütəmadi olaraq keçirilməkdədir. Uşaqların erkən yaşda zorakılığa məruz qalmasının aşkar edilməsi və bu zorakılığın qarşısının alınması istiqamətində təbliğat işləri aparılır. Erkən nikahların qarşısının alınması məqsədilə "18 yaşadək evlilik - Uşaq evliliyidir!" adlı maarifləndirmə vəsaitləri hazırlanmış və ictimaiyyətə təqdim edilmişdir. Bununla yanaşı Elm və Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK), BMT-nin Uşaq Fondu (UNICEF) və "Regional İnkişaf" İctimai Birliyinin (RİİB) birgə təşkilatçılığı ilə Azərbaycanda ilk dəfə "Uşaq hüquqları" hakatonu keçirilib. Eyni zamanda, "Uşaq əməyinin istismarının qarşısının alınması" mövzusunda silsilə təlimlər keçirilməkdədir. Uşaq hüquqlarının müdafiəsi məqsədilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən tərtib edilmiş "Erkən nigah valideyni cinayətkar edir!", "Müdafiəsiz uşaqların səsi ol", "Qaynar xəttə zəng et! 116-111", "Uşaqlarımız üçün üç HƏ - Sevgi! Anlayış! Qayğı!", "Uşaqlara qarşı zorakılıqla mübarizə aparaq!", "Kiber zorakılığa son!", "Kiber cinayət də cinayətdir!", "Övladının problemlərini dinlə! İntihardan qoru!" və "Uşaq əməyinə - YOX! Xoşbəxt uşaqlığa - HƏ!" mövzularında elektron poster və stikerlər hazırlanaraq ictimailəşdirilir. Cəmiyyəti bu mübarizədə birlik olmağa çağırır, uşaqların sağlam təfəkkürlü böyüməsinə imkan yaratmalıyıq. Komitə olaraq əsas məqsədlərimizdən biri də budur.

*- Qarabağ müharibəsi dövründə əziyyət çəkmiş uşaqların vəziyyətləri barəsində nə deyərdiniz?*

- Xüsusi olaraq bildirim ki, Komitə tərəfindən şəhid və qazi övladları daim diqqət mərkəzində saxlanılır. Onlarla mütəmadi olaraq söhbətlər aparılır, psixoloji durumları yoxlanılır. Ümumrespublika uşaq forumu, müxtəlif istiqamətli maarifləndirici təlimlər, uşaqların asudə vaxtlarının səmərəli və yeniyetmələr üçün yay tətili müddətində düşərgələrin təşkili zamanı şəhid və qazi övladlarının bu qəbildən olan tədbirlərə cəlb edilməsi prioritet olaraq nəzarətdə saxlanılır.

Bildiyimiz kimi, uşaqlar bu dünyanın, cəmiyyətin təməlidir. Onları yaxşı şəkildə yetişdirmək, tərbiyə etmək, hüquqlarını qorumaq, özgüvənli şəxsiyyətlər kimi formalaşdırmağa çalışmalıyıq ki, xoşbəxt uşaqların sayı cəmiyyətdə artsın.

**Tünzalə QULİYEVA**



## "Cizgi filmləri və nağılların 3-5 yaşlı uşaqların inkişafında rolu"

Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Şəki filialında Tələbə Elmi Cəmiyyətinin sədri, baş müəllim Səadət Feyzullayevanın təşkilatçılığı ilə maraqlı layihə həyata keçirilib. Layihə çərçivəsində "Cizgi filmləri və nağılların 3-5 yaşlı uşaqların inkişafında rolu" mövzusunda tələbə elmi-praktik konfransı təşkil edilib. Filialın müəllim və tələbələrinin iştirak etdiyi konfransı elmi işlər üzrə direktor müavini, dosent Nuralı Çələbiyev açaraq mövzunun aktuallığını qeyd edib. O, cizgi filmləri və nağılların psixoloji tərəflərinin elmi əsaslarla, yaşa müvafiq qaydada seçilməsinin vacibliyini konfrans iştirakçılarının diqqətinə çatdırıb.

S.Feyzullayeva cizgi filmləri, nağıl qəhrəmanları və oyuncaqlara verilən müasir tələblərdən danışıb, onların uşaqların təfəkkürünün, intellektinin formalaşmasında böyük rola malik olduğunu qeyd edib.

Sonra "Məktəbəqədər təlim və tərbiyə" ixtisasının tələbələri- Rəvanə Bayramovanın ""Tıq-tıq xanım" nağılının müasir baxışdan təhlili", Aişəgül Pirimovanın "Cizgi filmlərinin 3-5 yaşlı uşaqların inkişafına təsiri", Səbinə Mustafabəylinin "Uşaqların inkişafında əmək tərbiyəsinin və yaradıcılıq işlərinin rolu", Fəridə Hüseynovanın "Kukla teatrı", Fərqanə Hacı-Xəlilovanın "Oyuncaqlar" mövzularında çıxışları dinlənilib. Sonra tələbələr oyuncaqların müxtəlif texniki hazırlanma qaydalarını nümayiş etdiriblər.

Konfransın sonunda pedaqoji fakültənin dekanı Xalidə Abdullayeva çıxış edərək, tədbirin praktik əhəmiyyətini vurğulayıb, təşkilatçılara və tələbələrə təşəkkürünü bildirib.

Konfrans başa çatdıqdan sonra layihənin davamı olaraq, filialın "Məktəbəqədər təlim və tərbiyə" ixtisasının tələbələri tərəfindən hazırlanan "Şəngülüm, şüngülüm, məngülüm" kukla teatrı nümayiş etdirilib.

Layihə çərçivəsində təşkil olunan "İkinci həyat" - oyuncaqlar sərgisi böyük marağa səbəb olub. Sərgidə tələbələrin yumşaq, aplikasiya və təbii materiallardan hazırladıqları əl işləri - oyuncaqlar nümayiş etdirilib.

"AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti 23 L, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 7709 **Sifariş** 3192

**Məsul növbətçi:** S.Kərimova

# Etibarsız sayılır

**Bakı şəhər** 35 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Qədirli Rəvanə Tahir qızına verilmiş B-161248 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Məhəmməd Bağırov adına Girdəni kənd tam orta məktəbi 2011-ci ildə bitirmiş Bəşirzadə Bəxtiyar Zahid oğluna verilmiş A-053496 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**"Kaspi Liseyi"** ümumtəhsil məktəbini 2019-cu ildə bitirmiş Məmmədov Elşad Elburus oğluna verilmiş E-182400 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 272 nömrəli tam orta məktəbin IX sinfini 2012-ci ildə bitirmiş Hüseynov Orxan Hikmət oğluna verilmiş AN-167635 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Qoşabulaq kənd 1 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Verdiyeva Röyanə Sabit qızına verilmiş BN-052912 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dənizçilik Məktəbi** tərəfindən 1973-cü ildə Dadaşov Şakir Fərəməz oğluna verilmiş Ч-346760 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci** tərəfindən 2021-ci ildə Bayramov Əli Soltanəhməd oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 12 nömrəli tam orta məktəbi 2002-ci ildə bitirmiş Qurbanov Samir Teymur oğluna verilmiş A-608595 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Neft-Energetika Kolleci** tərəfindən 2012-ci ildə Fərzəliyev Azər Fəxrəddin oğluna verilmiş AA-021977 nömrəli subbakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Qarxun kənd tam orta məktəbi 2009-cu ildə bitirmiş Mahmudova Xədicə Kamil qızına verilmiş B-582958 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beyləqan şəhər** 1 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Süleymanzadə Minamin Arzuman oğluna verilmiş A-211545 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2010-cu ildə Məmmədzadə Samidə Çingiz qızına verlmiş B-183257 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) tərəfindən 2008-ci ildə Quliyev Üzeyir Müzəffər oğluna verilmiş B-124054 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 19 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Məmmədzadə Samir Manaf oğluna verilmiş A-114696 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 1997-ci ildə Əhmədov Samir Cəmil oğluna verilmiş AB-I-068944 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutu** tərəfindən 1992-ci ildə Abdullayev İlqar Ağamməd oğluna verilmiş HB-017385 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Nehrəm kənd 1 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş İbrahimov Səxavət Hüseyn oğluna verilmiş B-242238 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 193 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Mustafalı Təranə Nahmət qızına verilmiş B-492145 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 135 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Bağırova Səbinə Tahir qızına verilmiş 334729 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Adnalı kənd tam orta məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Şərbətova Zümrüd Məmməd qızına verilmiş 027367 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2009-cu ildə Məmmədzadə Elmar Rasim oğluna verilmiş B-149636 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Qafqaz Universiteti** tərəfindən 2012-ci ildə Məmmədzadə Elmar Rasim oğluna verilmiş MNB-026809 nömrəli magistr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Qax rayon** İlisu kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Məmmədov Tərlan Əlixan oğluna verilmiş B-234332 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Texnikumu** (Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci adlanır) 1997-ci ildə Əlizadə (Əsgərova) Könül Əziz qızına verilmiş AB-II-006200 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini** 2001-ci ildə bitirmiş Əsgərova (Əlizadə) Könül Əziz qızına 2003-cü ildə verilmiş A-085717 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Yalavac kənd tam orta məktəbi 2013-cü ildə bitirmiş Soltanov Süleyman Fuad oğluna verilmiş AN-253980 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 5 nömrəli məktəb-liseyi 2007-ci ildə bitirmiş İsrafilov Rafiq Rasət oğluna verilmiş BN-433118 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**3 nömrəli** Dəmir Yolu orta məktəbin IX sinfini (Bakı şəhər 298 nömrəli tam orta məktəb) 1991-ci ildə bitirmiş Həmzəyev Xaqani Mürsəl oğluna verilmiş 002174 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Vel kənd tam orta məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Əliyeva (Nəzərova) Zəmirə Əlimusa qızına verilmiş A-022335 nömrəli ümumi orta təhsil haqqında attesat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Gərmətük qəsəbə tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Məmmədova Gülnarə Güldadaş qızına verilmiş 1040 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** nəzdində İnşaat Kolleci tərəfindən 2019-cu ildə Hüseynov İbrahim Rafael oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Kənd Təsərrüfatı Akademiyası** tərəfindən 1995-ci ildə Əhmədov Elçin Haqverdi oğluna verilmiş AB-I-045331 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2011-ci ildə Hətəmova (Mənsimova) Ülkər Səməd qızına verilmiş B-213726 nömrəli bakalavr diplonmu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Sabirabad kənd 2 nömrəli tam orta məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Səfərli Sevda Zəfər qızına verilmiş A-109312 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**7 nömrəli Bakı Peşə Liseyi** tərəfindən 2007-ci ildə Rəhimov Kənan Ağakərim oğluna verilmiş BB-022963 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti** tərəfindən 2016-cı ildə Əhmədova Sevinc İslam qızına verilmiş A-095118 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**SSRİ Ali Attestasiya Komissiyası** tərəfindən 29.08.1990-cı ildə Səməd-zadə Qasım Musa oğluna verilmiş КД-020315 nömrəli Elmlər Namizədi diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 12 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Əlizadə Aysel Razi qızına verilmiş B-495539 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Qarabağlı kənd 2 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Əhmədova Almaz Natiq qızına verilmiş A-292707 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Viləş kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Bədəlova Mehriban Əlifağa qızına verilmiş B-225415 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Məmmədli kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş İsmayılov Ramil Yusif oğluna verilmiş B-307792 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

# ŞANLI ZƏFƏRİN iki ili

**Şagird və tələbələrin vətənpərvərlik ruhunda yetişdirilməsi, tarixi həqiqətlərin və qəhrəmanlarımızın göstərdikləri misilsiz şücaətlərin gənclərə ötürülməsi təhsil işçiləri qarşısında mühüm vəzifə kimi durur**

Azərbaycan öz tarixinin ən şərəfli, ən qürurlu günlərini yaşayır. İki il öncə torpaqlarımız Ermənistan işğalından azad olundu. Azərbaycan Böyük Zəfərə imza atdı.

Hər ötən gün 44 günlük Vətən müharibəsində əldə etdiyimiz qələbənin miqyasını, tarixi əzəmətini bizlərə daha dərindən anladır. Xalqımız tarixi Zəfər yolunda şəhidlik zirvəsinə ucalan qəhrəman övladlarını daim dərin ehtiram və minnətdarlıq hissi ilə yad edir. Çünki bu qələbə onların qanı ilə qazanıldı.

Vətən müharibəsinin hər bir günü yaddaşımıza əbədi həkk olundu. Yaxşı bilirik ki, bu müharibə Ermənistanın növbəti təcavüzkar hərəkətləri ilə başladı. 2020-ci il 27 sentyabr tarixində Ermənistan silahlı qüvvələri Azərbaycan silahlı qüvvələrinin cəbhə boyu mövqelərində təxribatlar törətdi. Bu, sadəcə təxribat deyildi, daha yeni ərazilər ələ keçirmək, yurdumuzdan yeni torpaq qoparmaq niyyəti idi. Düşmənin hərbi təxribatını dəf etmək və təcavüzünə son qoymaq məqsədilə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dərhal bütün cəbhə boyu əks-hücuma keçmək əmri verdi. Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində 30 il öncə itirdiyimiz əraziləri bir-bir geri aldıq. Ölkəmizin ərazi bütövlüyü bərpa olundu, Azərbaycan böyük Qələbəyə imza atdı. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu. Noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzaladılar. Üçtərəfli bəyanata əsasən, noyabrın 20-də Ağdam rayonu, noyabrın 25-də Kəlbəcər rayonu, dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verildi. 2022-ci il avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri tam nəzarətə götürüldü.

Xalqımızın Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında dəmir yumruq kimi birləşməsi sayəsində torpaqlarımızın işğaldan azad olunması, düşmənin silahlı qüvvələrinin darmadağın edilməsi 2020/2021-ci tədris ilinə Zəfər ili kimi daxil oldu. Böyük Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində 20 məktəb direktoru, 32 direktor müavini, 671 müəllim düşmənə qarşı vuruşaraq qəhrəmanlıqlar göstərdi. 20 təhsil işçisi şəhidlik zirvəsinə ucaldı. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə hər biri Şəhid təhsil işçilərindən 19-u “Vətən uğrunda”, 7-si “Şuşanın azad olunmasına görə”, 3-ü “Füzulinin azad olunmasına görə”, 2-si “Xocavəndin azad olunmasına görə”, 4-ü “Cəsur döyüşçü”, 4-ü “Döyüşdə fərqlənməyə görə”, 5-i “Qubadlının azad olunmasına görə”, 5-i “Cəbrayılın azad olunmasına görə”, 2-si “Laçının azad olunmasına görə”, 1 nəfər “İgidliyə görə”, 1 nəfər “Hərbi xidmətlərə görə” medalları ilə təltif edildi.

Bu gün Azərbaycan məktəbində, ali təhsil müəssisələrində təhsil alan şagird və tələbələrin vətənpərvərlik ruhunda yetişdirilməsi, tarixi həqiqətlərin və qəhrəmanlarımızın göstərdikləri misilsiz şücaətlərin gənclərə ötürülməsi təhsil işçiləri qarşısında mühüm vəzifə kimi durur.

Bir müəllim olaraq tədris prosesində təhsilanlara xalqımız üçün taleyüklü məsələlərə tarixilik prizmasından yanaşaraq böyük Zəfərə aparan qətiyyətin, iradənin, xalq-hakimiyyət birliyinin, ölkəmizdə bərqərar olmuş vətəndaş həmrəyliyinin ən yüksək şəkildə öz təsdiqini tapdığını izah edərək, qələbəmizi şərtləndirən amillərin təhlilini verməyə çalışıram. Şanlı Zəfərə qədər olan böyük yola qiymət verərkən, ölkəmiz üçün çox ağır, taleyüklü dönəmlərdə ulu öndər Heydər Əliyevin bir fikrini tələbələrə çatdırmağa çalışıram. Ulu Öndər qeyd edirdi ki, “Əsrlər boyu Vətən, torpaq anlayışı xalqımızın ləyaqətini, mənliyini, şərəfini əks etdirmişdir. Xalq öz torpağının müqəddəsliyini qorumaq üçün onun uğrunda ölüm-dirim mübarizəsi aparmışdır, ulu babalarımız Vətən torpağının hər bir qarışını namus simvolu kimi qorumuş, onun yolunda canlarını, övladlarını qurban verməkdən çəkinməmişdir”.

Hesab edirəm ki, son onilliklər ərzində böyük Zəfərə gedən yolda bu sözlər xalqımız üçün, ölkəmizin müdafiəsinə hər zaman hazır olan bugünkü gənclik üçün güclü bir inam mənbəyi olmuşdur. Digər tərəfdən, qəhrəmanlıqlarla zəngin olan keçmişimiz gənclərin mübarizə əzmini, qətiyyətini, torpaqlarımızın azadlığı yolunda hər cür fədakarlıqlara hazır olduğunu dəqiq ifadə edir.

Tələbələrin diqqətinə çatdırıram ki, tarixi torpaqlarımızın düşməndən azad edilməsi ulu öndər Heydər Əliyevin ən ümdə arzusu idi. Ümummilli Liderin 1998-ci il martın 20-də Mərdəkandakı “Abşeron” sanatoriyasında Novruz bayramı münasibətilə qaçqınlar və məcburi köçkünlər üçün keçirilən şənlikdə dediyi bu sözlər qüdrətli dövlət başçısının möhkəm daxili inamının ifadəsi idi: “Arzu edirəm ki, sizinlə birlikdə yenidən Şuşaya gedək. İnanıram ki, biz gedəcəyik. Buna inanın. Şuşa təkcə şuşalılar üçün deyil, hər bir azərbaycanlı üçün əziz bir anlayışdır, deyə bilərəm ki, Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Ona görə də Şuşa təkcə yaşayış məkanı deyildir. Şuşa bizim milli rəmzimizdir, mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma tək Şuşa yox, Laçın dağları da əzizdir. Laçın Azərbaycanın ən yüksək dağları, gözəl, səfalı meşələri,




**Gülnarə SADIQOVA,**
*ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin tarix müəllimi*

bulaqları, çayları olan bir diyarımızdır. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, məkan, bağ-bağat, gözəl yer, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o yüksək dağları, çeşmələri, İstisuyu - biz onlarsız heç vaxt yaşaya bilmərik. Heç vaxt Azərbaycanı bu gözəl guşələrsiz təsəvvür edə bilmərik”.

Bu gün tam əminliklə deyə bilərik ki, Ulu Öndərin illər öncə ifadə etdiyi bu möhkəm inam, əminlik hissi böyük Zəfərə aparan yolda haqq işimizin qələbə təntənəsi ilə başa çatmasında misilsiz rol oynadı.

### Şanlı Zəfərin qürur dolu anları

Şanlı Zəfərin ikinci ilində Azərbaycan təhsili üçün qürurverici anlar yaşandı. Qarabağ və Şərqi Zəngəzurun ilk təhsil zəngi doğma torpaqlarımıza Böyük Qayıdışın ilk ünvanı olan Ağalıda çalındı. Bu əlamətdar gündə ağalılı müəllim və şagirdlər öz doğma məktəblərinə sevinclə, qürurla, inamla qədəm basdı, unudulmaz gün yaşandı... 29 ildən sonra Ağalı kənd tam orta məktəbində dərs zənginin çalınması məhz şəhidlərimizin, qazilərimizin, Vətən müharibəsi iştirakçılarının sayəsində gerçəkləşdi.

Böyük Zəfər, şübhəsiz yeni reallıqlar yaratdığı kimi, təhsil sistemi, biz müəllimlər qarşısında da yeni prioritetlər qoyur. Bu baxımdan gənclərin vətənpərvər ruhda tərbiyəsi sahəsində öhdəmizə düşən vəzifələri yerinə yetirməkdə davam etməliyik. Təsadüfi deyildir ki, ölkə başçısı, Ali Baş Komandan İlham Əliyev gənc nəslin vətənpərvər ruhda tərbiyəsi ilə bağlı məktəblərimiz qarşısında aydın hədəf qoyub: “Bu gün bizim siyasətimizin təməlində milli maraqlarımız, milli dəyərlərimiz, Azərbaycan dəyərləri dayanır. Bu dəyərlər hər bir Azərbaycan vətəndaşı üçün hər şeydən üstün olmalıdır. Elə etməliyik ki, gələcək nəsil də bu istiqamətdə inkişaf etsin. Ona görə vətənpərvərlik, Vətənə olan bağlılıq, milli-mənəvi dəyərlər məktəblərdə mütləq geniş vüsət almalıdır, müəllimlər də bu istiqamətdə daha fəal iş aparmalıdırlar”.

44 günlük Vətən müharibəsi bir daha sübut etdi ki, müstəqillik illərində ölkəmizdə güclü vətənpərvərlik ruhuna sahib, milli ruhda tərbiyə almış, milli-mənəvi dəyərlərə bağlı gənclik formalaşıb. Bizi qürurlandıran məhz bu gənclik oldu! Bu gənclik bizim fəxrimiz oldu! İnanırıq ki, Azərbaycanın yeni-yeni nəsilləri də ürəyində torpaq eşqi, yurd sevgisi, vətən təəssübünü yaşadan bir nəsil olacaq. Bunun üçün isə Azərbaycan məktəblərində, ali təhsil müəssisələrində təhsil alan şagird və tələbələrin vətənpərvərlik ruhunda yetişdirilməsi, tarixi həqiqətlərin və qəhrəmanlarımızın göstərdikləri misilsiz şücaətlərin gənclərə ötürülməsi siyasəti uğurla davam etdirilməlidir. Bu missiya biz müəllimlərə aiddir. Təkcə vətənpərvərliyin təbliğatı yox, bu gün Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən nəhəng layihələrin, işğaldan azad olunmuş torpaqlarımızın keçdiyi yeni inkişaf mərhələsinin gərəkli təbliğatı, aydın şəkildə anladılması da bizim əsas vəzifələrimizdəndir. İnanırıq ki, gənclərimizə dövlətimizin iqtisadi gücünü, bölgəni dirçəltmək üçün prinsipial addımlarını anlatmaq borcumuzu layiqli şəkildə yerinə yetirə biləcəyik.



# Qarabağda təhsilin yenidən qurulması: insan kapitalının inkişaf etdirilməsi prizmasında

**44 günlük Zəfər savaşı xeyirin şər, sivilizasiyanın barbarlıq, mədəniyyətin vəhşilik üzərində qələbəsidir. Azərbaycan sivil dövlət kimi təcavüzkarı məğlub edərək bütövlükdə insanlığa, bəşəriliyə, mədəniyyətə xidmət etmiş oldu. II Qarabağ müharibəsindən sonra Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi proqramların məzmunu bunu bir daha sübut etdi. Torpaqları işğaldan azad etmək əməliyyatının başa çatmasından sonra cənab Prezident İlham Əliyev “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında” Sərəncam imzaladı. Əlaqələndirmə Qərargahı işğaldan azad edilmiş ərazilərin dirçəlişi istiqamətində quruculuq, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, bu hədəfə nail olunmasında dövlət orqanlarının (qurumlarının) və digər təşkilatların əlaqələndirilmiş fəaliyyətinin gücləndirilməsi, habelə idarəetmədə çevikliyin və səmərəliliyin artırılması məqsədilə yaradılmışdır.**

Azərbaycan sistemli, davamlı və vahid mövqedən yanaşaraq işğaldan azad olunmuş ərazilərdə bərpa işləri aparmağa start verib. Bura cəmiyyətin bütün əsas sferalarında fəaliyyət göstərən sosial, siyasi, iqtisadi, mədəni təsisatlar və təşkilatların yenidən qurulması daxildir. Onların sırasında təhsil ayrıca yer tutur və bunun böyük əhəmiyyəti vardır.

Qarabağın ölkənin sosial-mədəni və iqtisadi məkanına reinteqrasiyası düşünülmüş sistemli layihələrin həyata keçirilməsi vasitəsi ilə baş verəcək və burada intellekt, təhsil, mədəniyyət və mənəvi-əxlaqi dəyərlər aparıcı rol oynayacaq.

Azərbaycanın dövlət başçısının məsələyə yüksək dərəcədə həssaslıq və ən müasir layihələri reallaşdırmaq əzmi ilə yanaşmasının ciddi əsasları vardır. Məsələ ondan ibarətdir ki, ermənilər işğal etdikləri Azərbaycan torpaqlarında mədəniyyət, təhsil və dini obyektləri vəhşicəsinə dağıtmışlar. Dağıntıların statistikası olduqca faciəvi mənzərəni ortaya qoyur.

Rəsmi məlumatlara görə, erməni işğalçıları və separatçıları 1107 təhsil müəssisəsini tamamilə dağıtmış, 855 uşaq bağçasını vəhşicəsinə məhv etmişlər. Bundan başqa, 74 məscid və 800-dən çox qəbiristanlığı yerlə-yeksan etmişlər.

Dini məbədlərimizdə heyvanlar saxlamışlar, bəzi məscidləri silah anbarına çevirmişlər. Dağıdılan məktəblərin və qəbiristanlıqların materiallarını ya özləri üçün aparmış, ya da satmışlar. Bir sözlə, təhsilə və mədəniyyətə qarşı böyük vəhşiliklər törətmiş, sivil, mədəni tarixə hörmətsizlik etmişlər.

İşğalçılar tarixi Şuşa Real Məktəbini dağıtmışlar. Zəngəzurda ilk dünyəvi məktəb (rus-tatar məktəbi) 1882-ci ildə Qubadlıda yaradılmışdı. Bütövlükdə işğaldan əvvəl Qubadlıda 61 ümumtəhsil məktəbi mövcud olmuşdur. İndi orada həm tarixi rus-tatar məktəbindən, həm də başqa məktəblərdən əsər-əlamət qalmamışdır.

Bunlardan başqa, Cəbrayıl rayonunun Soltanlı kəndində 1912-ci ilə kimi rus-tatar məktəbi kimi fəaliyyətə başlayan və sonralar həmin kəndin orta məktəbi olan tarixi təhsil müəssisəsini tamamilə dağıtmışlar. Kəlbəcərdə də işğaldan əvvəl mövcud olan 96 ümumtəhsil məktəbi məhv edilmişdir.

Onu da vurğulayaq ki, təhsil obyektləri ilə yanaşı, yüzlərlə mədəniyyət müəssisəsini də işğalçılar dağıtmışlar. Məsələn, 4,6 milyon kitab fondu olan 927 kitabxana yox edilmişdir. 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi dağıdılmışdır. 85 musiqi və rəssamlıq məktəbi yerləyeksan olunmuşdur. 100 mindən artıq eksponatın toplandığı 22 muzey və muzey filialı məhv edilmişdir. Münaqişədən öncə dövlət qeydiyyatına alınmış 700-dən artıq tarix və mədəniyyət abidəsi işğalçıların qurbanı olmuşdur.

İşğalçı Ermənistan 30 il müddətində Azərbaycanın qədim Qarabağ bölgəsində tarixi-mədəni və dini abidələrə, təhsil müəssisələrinə qarşı böyük vəhşiliklər etmişlər, onları dağıtmışlar.



Bu səbəbdən, cənab Prezidentin Qarabağda yenidənqurma işləri, o cümlədən təhsilin bərpası ilə bağlı ardıcıl və sistemli siyasət yeritməsi dövlətçilik və cəmiyyətin inkişafı baxımından son dərəcə əhəmiyyətlidir. Artıq bu istiqamətdə konkret nəticələr də alınır.

Əvvəlcə, onu vurğulayaq ki, Azərbaycanın təhsil işçiləri Prezident İlham Əliyevin bu sahədə bir fikrini rəhbər tuturlar. Dövlət başçısı ifadə etmişdi: “Gələcəkdə bizi böyük işlər gözləyir, ölkəmiz üçün yeni dövr başlayır, quruculuq dövrü, inkişaf dövrü, torpaqlarımızın bərpası günləri bizi gözləyir. Bu dövr şərəfli dövr olacaqdır. Baxmayaraq ki, düşmən işğal etdiyi və artıq azad olunmuş torpaqlarda hər şeyi dağıdıb, biz bütün şəhərlərimizi bərpa edəcəyik, kəndlərimizi bərpa edəcəyik, Qarabağ bölgəsində cənnət yaradacağıq. Bizim xalqımız buna layiqdir. Bizim xalqımıza qələbə yaraşır və qələbə həmişə bizimlə olacaq!”.

Artıq Prezidentin göstərdiyi istiqamətdə yeni konkret işlər görülür. Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində qısa müddət ərzində məktəb və uşaq bağçası inşa edilmişdir. Hər iki müəssisə müasir avadanlıqlarla tam təmin edilmişdir.

Eyni sürət və keyfiyyətlə işğal dövründə zərər görmüş bütün təhsil ocaqları bərpa edilir. Bu zaman Azərbaycan təhsil işçilərinin başlıca hədəfi BMT-nin 2030-cu ilə qədər 17 Dayanıqlı İnkişaf Məqsədlərindən olan “Hər kəs üçün inklüziv və keyfiyyətli təhsili təmin etmək və ömürboyu təhsili təşviq etmək” proqramına tam uyğun işləri aparmaqdan ibarətdir.

Həmin istiqamətdə aparılan işlərlə bağlı rəsmi informasiyalara görə, Şuşa şəhər 1 nömrəli tam orta məktəbinin yeni tədris ilində təhvil verilməsi nəzərdə tutulub. Bu məktəbdə 960 şagird təhsil alacaq. Bundan başqa, artıq Şuşa Real Məktəbinin bərpa-gücləndirmə və əsaslı təmiri ilə bağlı konsept layihəsi hazırdır. Şuşa Real Məktəbinin layihələndirmə işləri başlanmışdır.

Ağdam şəhərində yenə də 960 şagirdin təhsil ala biləcəyi 1 saylı şəhər tam orta məktəbinin tikinti işlərinə başlanılıb. 2022-ci ilin sonunda həmin məktəbin təhvil verilməsi planlaşdırılmışdır.

Füzuli şəhərində də 960 şagird yerlik tam orta məktəbinin layihələndirilməsi və tikintisi ilə əlaqədar layihə-smeta sənədləri hazırlanır. Bundan başqa, Füzulidə 700 yerlik peşə liseyinin təməli qoyulub.

Cəbrayılda akademik Mehdi Mehdizadə adına tam orta məktəbin tikilməsi planlaşdırılmışdır. Həmin məktəbdə də 960 şagird təhsil almalıdır. Rayonun Yuxarı Mərcanlı kənd məktəbinin təməli isə artıq qoyulmuşdur. Orada da 960 şagird təhsil alacaq.

Tərtər rayonunun Suqovuşan qəsəbəsində isə 144 şagirdin oxumasının mümkün ola biləcəyi tam orta məktəb tikiləcək. Məktəbin layihələndirilməsi başa çatmışdır. Onun layihə-smeta sənədləri də hazırdır.

Gətirilən faktlar onu göstərir ki, işğaldan azad olunmuş ərazilərdəki təhsil ehtiyacları artıq müəyyənləşdirilmiş, onların qiymətləndirilməsi aparılmışdır. Bununla bütövlükdə Qarabağda optimal təhsil ocaqlarının yaradılmasına nail olmaq mümkündür. Həm də təhsilin müasir səviyyədə təşkili üçün geniş imkanlar yaranır.

Qarabağda təhsilin yenidən təşkil edilməsi istiqamətində görülən bu işlər, əlbəttə, təqdirəlayiqdir. Çünki qısa bir müddətdə xeyli işlər görülmüşdür və o, intensiv olaraq davam edir. Aydın görünür ki, dövlətimiz ardıcıl olaraq, düşünülmüş şəkildə prosesləri davam etdirməkdə tam qərarlıdır.

Azərbaycan dövləti, o cümlədən, Elm və Təhsil Nazirliyi bütün bu işləri BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə tam uyğun həyata keçirir. Bu isə həm təhsilə müasir yanaşmanı, həm də keyfiyyətli tədrisə nail olmağı təmin edən mühüm şərtlərdəndir.

Qarabağda təhsilin yenidən qurulması istiqamətində işlər konkret olaraq “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”na uyğun aparılır. Məlumdur ki, bu strategiyanın məqsədi Azərbaycanın modernləşdirilməsi üçün lazım olan insan kapitalının inkişaf etdirilməsi prinsipini reallaşdırmaqdan ibarətdir. Bu, müasir təhsil baxımından olduqca vacib məqamdır. Çünki tarixin indiki mərhələsində insan kapitalı hər bir cəmiyyət üçün strateji əhəmiyyət kəsb edir.

Bundan başqa, həmin strategiya Azərbaycanın beynəlxalq rəqabət qabiliyyətini yüksəltməyə xidmət edir. Hazırda təhsil hər bir xalq üçün ciddi strateji məna daşıyır. Keyfiyyətli təhsil insan kapitalının başlıca inkişaf şərtlərindəndir.

Azərbaycanda təhsil sahəsində mükəmməl dövlət proqramları və islahatlar həyata keçirilir. Onun bariz nümunəsi kimi Qarabağda təhsilin yenidən təşkilini göstərmək mümkündür. Bütövlükdə isə təhsilin sistem olaraq müasir tələblərə uyğun inkişafı həm müstəqil dövlətçiliyin möhkəmlənməsində, həm də Azərbaycanın gələcək təhsil tərəqqisində əhəmiyyətli rol oynayacaq.

**Ramil ALLAHVERƏNOV,**
*Qubadlı rayon Hafis Quliyev adına Texniki fənlər təmayüllü Çaytumas məktəb-liseyin tədris işləri üzrə direktor müavini*